Azərbaycan Respublikası Baş nazirinin

02 noyabr 2023-cü il tarixli 1-5-07/2-840/2023

nömrəli göstərişinə dair

# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2023-cü ildə fəaliyyətinin yekunlarına dair

# HESABATI

## Mündəricat

**Bölmə 1. Xarici ticarət və fiskal öhdəliklər.**
1.1. Xarici ticarət dövriyyəsi
1.2. Neft və qeyri-neft sektorunun ixracda payı
1.3. Büdcə daxilolmaları, proqnoz göstəricilər və faktiki icra
1.3.1. Gömrük rüsumları
1.3.2. Əlavə dəyər vergisi
1.3.3. Aksizlər
1.3.4. Yol vergiləri
1.4. Gömrük borclarının hesablanması və alınması
1.5. Gömrük azadolmaları və güzəştlər
1.6. Gömrük dəyərinə nəzarət
1.7. Gömrük tariflərinin tənzimlənməsi
1.8. Valyuta və ixrac nəzarəti üzrə tədbirlər

**Bölmə 2. Hüquqpozmalara qarşı mübarizə.**
2.1. İstintaq-təhqiqat tədbirləri
2.2. Əməliyyat-axtarış fəaliyyəti
2.3. İnzibati xətalar
2.4. Hüquqpozmalarla mübarizədə beynəlxalq təşkilatlarla əməkdaşlıq

**Bölmə 3. Gömrük nəzarətinin təkmilləşdirilməsi.**
3.1. Gömrük risklərinin idarəedilməsi
3.2. Gömrük auditi
3.3. Əqli mülkiyyət hüquqlarının müdafiəsi
3.4. Baytarlıq, fitosanitar və sanitariya tədbirləri

**Bölmə 4. Gömrük inzibatçılığı.**
4.1. Qanunvericiliyin təkmilləşdirilməsi
4.1.1. Qanun layihələri
4.1.2 Fərman və sərəncam layihələri
4.1.3. Qərar layihələri
4.1.4. Qəbul olunmuş normativ hüquqi sənədlər
4.1.5. Tənzimləyici sənədlər
4.2. Gömrük ekspertizası
4.3. Tibbi xidmət
4.4. Biznes mühitinin yaxşılaşdırılması üzrə tədbirlər

**Bölmə 5. Ticarətin asanlaşdırılması tədbirləri.**
5.1. Tranzit əməliyyatlarının sadələşdirilməsi
5.2. Səlahiyyətli İqtisadi Operator
5.3. Yaşıl dəhliz iştirakçıları
5.4. Birbaşa və dolayı təmsilçilik
5.5. Rüsumsuz ticarət mağazaları
5.6. Beynəlxalq Yük Daşımaları
5.7. Müvəqqəti saxlanc anbarları

**Bölmə 6. Beynəlxalq əməkdaşlıq.**
6.1. Beynəlxalq, regional və ikitərəfli əməkdaşlıq

**Bölmə 7. Fəaliyyətin təkmilləşdirilməsi.**
7.1. İnfrastruktur layihələr
7.2. Maddi texniki baza
7.3. Texnoloji təminat və təkmilləşdirmə işləri
7.3.1. Məlumat mübadiləsi
7.3.2. İnnovasiya texnologiyaları və informasiya təhlükəsizliyi
7.3.3. VAİS-də təkmilləşdirmə işləri
7.4. İnsan resurslarının idarə edilməsi
7.4.1. Daxili müsabiqələr
7.4.2. Peşə bilik və bacarıqların inkişafı
7.4.3. Kadr sənədləri ilə iş

**Bölmə 8. İctimaiyyətlə əlaqələr.**
8.1. İctimai iştirakçılıq
8.2. Sosial layihələr, könüllü hərəkatı
8.3. KİV və sosial şəbəkələrlə iş
8.4. Maarifləndirici görüşlər
8.5. Çağrı Mərkəzi

**Bölmə 9. Pedaqoji və elmi-tədqiqat fəaliyyəti.**
9.1. Dövlət Gömrük Komitəsinin Akademiyasında tədris işləri
9.1.1 Tələbə mübadiləsi və elmi tədbirlər
9.1.2. İxtisasartırma təlimləri
9.1.3. Beynəlxalq əməkdaşlıq

**Bölmə 10. Sənəd dövriyyəsi və vətəndaş müraciətləri.**
10.1. Sənəd dövriyyəsi
10.2. Vətəndaş müraciətləri

## Giriş.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin əsas prioritetlərindən birini məhz davamlı və tarazlı iqtisadi artımın əldə olunması təşkil edir.

Qlobal iqtisadi reallıqlar və 2030-cu ilədək inkişaf dövründə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün milli iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və onun ixrac potensialının inkişaf etdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün ölkədə işgüzar mühitin yaxşılaşdırılması məqsədilə ardıcıl və məqsədyönümlü tədbirlər həyata keçirilir.

İqtisadiyyatımızın qlobal iqtisadiyyatın mənfi təsirlərindən qorunması, dövlət büdcəsinin xərclərinin təmin edilməsi ilə yanaşı sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına imkan yaradan gömrük siyasətinin həyata keçirilməsi, kölgə iqtisadiyyatının minimuma endirilməsi, özəl və dövlət sektorunda şəffaflıq səviyyəsinin yüksəldilməsi, eləcə də korrupsiya ilə mübarizənin gücləndirilməsi hesabat dövründə gömrük orqanlarının fəaliyyətinin əsas istiqamətlərini təşkil etmişdir.

Bununla yanaşı, ölkənin orta və uzun müddətli prioritet inkişaf istiqamətləri və müasir çağırışlar nəzərə alınmaqla strateji planlaşdırma aparılmış və yeni “Gömrük İNKİŞAF modeli” qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə gömrük orqanlarının fəaliyyətinin təşkili istiqamətində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 may tarixli 2132 nömrəli Fərmanına əsasən Komitənin 2023-cü il 12 may tarixli 1000/118 nömrəli sərəncamı ilə Şərqi Zəngəzur Gömrük İdarəsi təsis edilmişdir.

İşğaldan azad edilmiş ərazilərdə gömrük orqanlarının fəaliyyətinin təşkili məqsədilə mövcud ehtiyaclar və perspektivlər nəzərə alınmaqla Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində “Laçın” gömrük postu və Zəngilan Beynəlxalq Hava Limanında “Zəngilan beynəlxalq hava limanı” gömrük postu yaradılmışdır. İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiya bağlantılarının yaradılması istiqamətində Zəngilan rayonunun Ağbənd qəsəbəsi ərazisində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dövlət sərhədindən yeni buraxılış məntəqəsinin layihələndirilməsi üzrə işlər davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın icrası ilə əlaqədar Dövlət Gömrük Komitəsinin 2023-cü il 12 yanvar tarixli 1000/008 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Təqvim planı” Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş çoxsaylı idman oyunları, müsabiqə, konfrans, sosial layihələr və tibbi aksiyalar həyata keçirilmiş, 23 videoçarx, 1 film və 24 poster hazırlanaraq Dövlət Gömrük

Komitəsinin sosial şəbəkələrdəki rəsmi hesablarında mütəmadi olaraq paylaşılmış, Komitənin təşəbbüsü ilə xüsusi ayrılmış 20 hektar ərazidə damla suvarma sistemlərinin quraşdırılması və gömrük əməkdaşlarının iştirakı ilə həmin ərazidə 14 mindən çox fidanın əkilməsi təmin edilmişdir.

## Bölmə 1. Xarici ticarət və fiskal öhdəliklər.

### 1.1 Xarici ticarət dövriyyəsi.

(min ABŞ dolları ilə)

| Göstəricilər | 2022 | 2023 | 2022/2021 | 2023/2022 |
|---|---|---|---|---|
| **İXRAC** | 38.146.684,13 | 33.898.554,86 | 71,8 % | -11,14 % |
| **İDXAL** | 14.539.789,06 | 17.285.344,69 | 24,2 % | 18,9 % |
| **SALDO** | 23.606.895,07 | 16.613.210,17 | 124,7 % | -29,6 % |
| **TİCARƏT DÖVRİYYƏSİ** | 52.686.473,19 | 51.183.899,55 | 55,4 % | -2,9 % |

Xarici ticarətin tərəfdaş ölkə qrupları ilə dinamikası aşağıdakı kimi olmuşdur.

| İXRAC | 2022 | 2023 | Qrupda payı, % | 2022/2021 | 2023/2022 |
|---|---|---|---|---|---|
| **CƏMİ:** | **38.146.684,13** | **33.898.554,86** | **100%** | 71,8 % | -11,1 % |
| MDB ölkələri | 1.635.312,81 | 1.653.191,22 | 4,9 | -8,6 % | 1,1 % |
| Aİ ölkələri | 25.009.832,56 | 21.821.553,54 | 64,4 | 91,4 % | -12,7 % |
| Digər ölkələr | 11.501.538,76 | 10.423.810,09 | 30,8 | 56,4 % | -9,4 % |

| İDXAL | 2022 | 2023 | Qrupda payı, % | 2022/2021 | 2023/2022 |
|---|---|---|---|---|---|
| **CƏMİ:** | **14.539.789,06** | **17.285.344,69** | **100%** | 24,2 % | 18,9 |
| MDB ölkələri | 4.413.761,92 | 4.769.217,43 | 27,6 | 50,8 % | 8,1 |
| Aİ ölkələri | 2.334.741,32 | 3.000.295,92 | 17,4 | 9,2 % | 28,5 |
| Digər ölkələr | 7.791.285,82 | 9.515.831,35 | 55,1 | 17,3 % | 22,1 |

**1.2. Neft və qeyri-neft sektorunun ixracda payı.**

(min ABŞ dolları ilə)

| № | Göstəricilər | 2022 | 2023 | 2022-ci il ilə müqayisə | | İxracda x/ç, faizlə | |
|---|---|---|---|---|---|---|---|
| | | | | məbləğlə | faizlə | 2022 | 2023 |
| **1.** | **İxrac** | 38.146.684,13 | 33.898.554,86 | -4.248.129,27 | -11,1 | | |
| **2.** | **İdxal** | 14.539.789,06 | 17.285.344,69 | 2.745.555,63 | 18,9 | | |
| 2.1. | Neft-qaz sektoru üzrə | 35.098.653,33 | 30.550.507,93 | - 4.548.145,40 | -13,0 | 92,1 | 90,1 |
| 2.2. | Qeyri neft-qaz sektoru üzrə | 3.048.030,80 | 3.348.046,93 | 300.016,13 | 9,8 | 7,9 | 9,9 |
| **3.** | **Dövriyyə** | **52.686.473,19** | **51.183.899,55** | - 1.502.573,64 | -2,9 | | |
| **4.** | **Saldo** | **23.606.895,07** | **16.613.210,17** | - 6.993.684,90 | -29,6 | | |

**1.3. Büdcə daxilolmaları, proqnoz göstəricilər və faktiki icra.**

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanununa əsasən 2023-cü il ərzində Dövlət Gömrük Komitəsi üçün 5 milyard 728 milyon manat büdcə öhdəliyi Komitənin strukturuna daxil olan ərazi və ixtisaslaşdırılmış gömrük idarələri arasında bölüşdürülmüş və aylar üzrə yerinə yetirilməsinə mütəmadi olaraq nəzarət edilmişdir (qeyd: 2023-cü il üzrə büdcə daxilolmalarına dair qeyd olunan məlumatlar ilkin məlumatlardır).

(min manatla)

| İllər | Proqnoz | Faktiki | Fərq | |
|---|---|---|---|---|
| | | | min manatla | faizlə |
| **2023** | 5 728 000,0 | 6 334 772,1 | 606 772,1 | 110,6 |
| **2022** | 4 605 000,0 | 5 654 602,4 | 1 049 602,4 | 122,8 |






### 1.3.1. Gömrük rüsumları.

(min manatla)

| İllər | Proqnoz | Faktiki | Fərq | |
|---|---|---|---|---|
| | | | min manatla | faizlə |
| **2023** | 1 456 000,0 | 1 625 125,3 | 169 125,3 | 111,6 |
| **2022** | 1 300 000,0 | 1 419 969,1 | 119 969,1 | 109,2 |







### 1.3.2. Əlavə dəyər vergisi.

(min manatla)

| İllər | Proqnoz | Faktiki | Fərq | |
|---|---|---|---|---|
| | | | min manatla | faizlə |
| **2023** | 4 060 250,0 | 4 442 622,7 | 382 372,7 | 109,4 |
| **2022** | 3 085 000,0 | 4 003 422,6 | 918 422,6 | 129,8 |







### 1.3.3. Aksizlər.

(min manatla)

| İllər | Proqnoz | Faktiki | Fərq | |
|---|---|---|---|---|
| | | | min manatla | faizlə |
| **2023** | 171 750,0 | 224 277,1 | 52 527,1 | 130,6 |
| **2022** | 170 000,0 | 168 897,8 | -1 102,2 | 99,4 |







Hesabat dövründə gömrük orqanları tərəfindən dövlət büdcəsinə köçürülmüş vəsaitlər haqqında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə üzləşmə aktları tərtib edilərək təsdiqlənmiş, büdcə proqnozunun icrası barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə və Hesablama Palatasına mütəmadi olaraq məlumatlar verilmişdir.

### 1.3.4.Yol vergiləri və icazə blankları.

2023-cü il ərzində Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 8.0.7-ci yarımbəndinə və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 15-ci fəslinə müvafiq olaraq xarici dövlətlərə məxsus avtonəqliyyat vasitələrindən Azərbaycan Respublikasının ərazisindən istifadəyə görə yol vergisinin düzgün hesablanmasına və alınmasına nəzarət edilmişdir.

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” 2023-cü il 24 fevral tarixli 829-VIQD nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən 01 mart 2023-cü il tarixindən etibarən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri ilə təhlükəli yüklərin daşınmasına görə tətbiq olunan yol vergisi ləğv edilmişdir.

Eyni zamanda, həmin Qanuna əsasən ağır çəkili avtonəqliyyat vasitələri ilə yüklərin daşınmasına görə Azərbaycan Respublikasının ərazisində qət edilən yolun hər kilometri üçün tətbiq olunan yol vergisi yük avtonəqliyyat vasitələri üçün 38 tondan 41 tona yüksəldilmişdir.

Əlavə olaraq, "Dövlət rüsumu haqqında Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2023-cü il 24 fevral tarixli 830-VIQD nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən, dövlət rüsumu təyin edilməklə avtomobil daşımalarını yerinə yetirən xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinə sərhəddə tətbiq edilən "İcazə" blankları 01 mart 2023-cü il tarixindən etibarən ləğv edilmişdir.

Həmçinin, "Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununun 30.1-ci maddəsinə əsasən, malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş tələblərə uyğunluğu barədə sertifikatın verilməsi və buna görə müəyyən edilmiş məbləğlərdə dövlət rüsumunun tutulması təmin edilmişdir.

Yol vergisi üzrə

| İllər | Proqnoz | Faktiki | Yerinə yetirilmə | |
|---|---|---|---|---|
| | | | min manatla | faizlə |
| **2023** | 40 000,0 | 42 747,0 | 2 747,0 | 106,9 |
| **2022** | 50 000,0 | 62 312,9 | 12 312,9 | 124,6 |

Dövlət rüsumu üzrə

| İllər | Faktiki |
|---|---|
| **2023** | 7,453.72 |
| **2022** | 25,081.18 |

Qeyd: 2023-cü il üzrə qeyd olunan məlumatlar ilkin məlumatlardır.

### 1.4. Gömrük borcunun hesablanması və alınması.

2023-cü il ərzində Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 250-ci maddəsinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 3 oktyabr tarixli 286 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təminatdan istifadə etməklə gömrük borcunun ödənilməsinin təmin edilməsi Qaydaları"nın tələblərinə uyğun olaraq yaranmış və gələcəkdə yarana biləcək gömrük borcuna görə təminat vasitələrinin alınmasına nəzarət edilmişdir.

1 dekabr 2023-cü il tarixdə müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında qalma müddəti başa çatmış mallara görə şərti hesablanmış gömrük ödənişlərinin cəmi 41 524 328, 87 manat təşkil etmişdir.

Müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında qalma müddəti başa çatmış mallara görə yaranmış gömrük borcunun dövlət büdcəsinə köçürülməsinin təmin edilməsi məqsədilə 2023-cü il ərzində xarici iqtisadi fəaliyyət iştirakçılarına bildirişlərin göndərilməsi, onların müvəkkil bank hesablarına Komitə tərəfindən alınmalı və dondurulmalı sərəncamların qoyulması, habelə hüquqi müstəvidə atılmış bir sıra addımların nəticəsində 30 dekabr 2023-cü il tarixə müvəqqəti saxlanc xüsusi gömrük proseduru altında qalma müddəti başa çatmış mallara görə şərti hesablanmış gömrük ödənişlərinin cəmi 28 728 819,41 manat azalaraq 12 795 509,46 manat olmuşdur.

### 1.5. Gömrük azadolmaları və güzəştlər.

Hesabat dövründə mövcud qanunvericilikdə nəzərdə tutulmuş güzəşt və azadolmaların düzgün tətbiqinə mütəmadi nəzarət təmin edilmişdir. 2023-cü il ərzində idxal əməliyyatlarının tərkibində qeydə alınmış azadolma həcmi aşağıdakı cədvəldə öz əksini tapmışdır:

*(min ABŞ dolları ilə)*

| Göstəricilər | 2022 | | 2023 | |
|---|---|---|---|---|
| İdxalın həcmi | 14.539.789,06 | | 17,285,344.69 | |
| Vergi və rüsumdan azad edilən idxalın həcmi | | | | |
| İdxal gömrük rüsumu | 8,256,235.87 | 56.78% | 9,703,388.71 | 56.14% |
| ƏDV | 2,794,975.99 | 19.22% | 4,010,677.09 | 23.20% |
| Vergi və rüsuma cəlb edilən idxalın həcmi | | | | |
| İdxal gömrük rüsumu | 6,283,553.19 | 43.22% | 7,581,955.98 | 43.86% |
| ƏDV | 11,744,813.07 | 80.78% | 13,274,667,6 | 76.80% |

2023-cü il ərzində hasilatın pay bölgüsü sazişlərinə və Azərbaycan Respublikasının idxal və ixrac rüsumları və vergiləri haqqında protokola əsasən gömrük ödənişlərindən azadolma hüququ verən 156 sertifikat verilmişdir.

O cümlədən, hesabat dövrü ərzində gömrük rüsum və vergilərindən azadolmalarla bağlı bir sıra qanunvericilik aktları qəbul edilmişdir:

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 18 fevral tarixli 55 nömrəli Qərarına uyğun olaraq Mingəçevir Yüksək Texnologiyalar Parkının rezidenti olan fiziki şəxs tərəfindən idxal edilən qurğuların, hissə və ləvazimatların gömrük rüsumundan azadolunma müddəti 2025-ci ilə qədər artırılmışdır;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 15 aprel tarixli 116 nömrəli Qərarına əsasən 272 XİFMN kodu üzrə bir sıra xammal və aralıq məhsullarının idxal rüsum dərəcəsi 2024-cü ilin yanvar ayının 1-dən “0” dərəcəyə endirilmişdir;

Azərbaycan Respublikasının Prezidentinin 2023-cü il 8 iyun tarixli 2177 nömrəli Fərmanına əsasən xaricdə çap olunmuş pasport və yeni nəsil şəxsiyyət vəsiqəsi blankları Azərbaycan Respublikasının Prezidentinin 2022-ci il 1 iyul tarixli 1732 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı”na əlavə edilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 15 iyun tarixli 195 nömrəli Qərarına əsasən bir sıra avadanlıqlar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2022-ci il 2 dekabr tarixli 430 nömrəli Qərarı ilə təsdiq olunmuş “Əlavə dəyər vergisindən azad olunan bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, habelə onların ehtiyat hissələrinin Siyahısı”na əlavə olunmuşdur;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 3 fevral tarixli 132s nömrəli Sərəncamının 2-ci hissəsinə uyğun olaraq Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanmış dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı gömrük rüsumlarından azad edilən avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22 iyun 2023-cü il tarixli 203 nömrəli Qərarı ilə təsdiq edilmişdir;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 8 iyul tarixli 223 nömrəli Qərarına əsasən benefisiar dövlət orqanı (qurumu) və ya benefisiar fondun təsdiqedici sənədinə əsasən, hüquqi və fiziki şəxslər tərəfindən dövlət orqanlarına (qurumlarına), eləcə də siyahısı Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2147 nömrəli Fərmanı ilə təsdiq edilmiş ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara əvəzsiz olaraq verilməsi, habelə dövlət orqanlarına (qurumlarına) və həmin fondlara əvəzsiz olaraq verilən daşınmaz əmlakların və əmlak kompleksi şəklində müəssisələrin yaradılması üçün idxal olunan mallar 2026-cı il dekabrın 31-dək gömrük rüsumundan azad olunmuşdur;

Azərbaycan Respublikasının Prezidentinin 2023-cü il 17 iyul tarixli 2217 nömrəli Fərmanına əsasən minik avtomobillərinin tam istehsal formasında sənaye yığımı üçün komplekt şəkildə gətirilən bir sıra mallar Azərbaycan Respublikasının Prezidentinin 2022-ci il 1 iyul tarixli 1732 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı”na əlavə edilmişdir;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2022-ci il 28 dekabr tarixli 792s nömrəli Sərəncamının 2-ci hissəsinə uyğun olaraq Dövlət Gömrük Komitəsi tərəfindən hazırlanmış investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 18 iyul tarixli 231 nömrəli Qərarı ilə təsdiq edilmişdir;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 4 avqust tarixli 264 nömrəli Qərarına əsasən iri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində ölkəyə gətirilən avadanlıqlar və materialların idxal gömrük rüsumundan azad olunması 2 il müddətinə artırılmışdır;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarına əsasən “İşğaldan azad edilmiş ərazilər üzrə idxalı ƏDV və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların Siyahısı” təsdiq olunmuşdur;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 307 nömrəli Qərarına əsasən “İdxalı əlavə dəyər vergisindən azad olunan əsas vəsaitlərin Siyahısı” təsdiq olunmuşdur;

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanunu ilə Energetika Nazirliyinin verdiyi təsdiqedici sənəd əsasında svop əməliyyatları çərçivəsində xam neftin və təbii qazın idxalı əlavə dəyər vergisindən azad olunmağa başlanmışdır;

Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1039-VIQD nömrəli Qanununa əsasən qanunvericilikdə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən mal və avadanlıqların idxalı gömrük rüsumundan azad olunmuşdur;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 25 dekabr tarixli 473 nömrəli Qərarına əsasən Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal və avadanlıqların idxalına tətbiq olunan gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımı ləğv olunmuşdur;

Azərbaycan Respublikasının Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2428 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidentinin 2022-ci il 1 iyul tarixli 1732 nömrəli Fərmanının 4-cü hissəsinə uyğun olaraq əlavə dəyər vergisindən azadolma 3 il müddətinə artırılmışdır;

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 505 nömrəli Qərarına əsasən antiinflyasiya tədbirləri çərçivəsində bir sıra aralıq məhsullarına tətbiq edilən “0” idxal rüsum dərəcəsinin müddəti 31 dekabr 2026-cı ilə qədər artırılmışdır.

### 1.6. Gömrük dəyərinə nəzarət.

Ötən il beynəlxalq təcrübədə qəbul olunmuş standart çərçivələr və Azərbaycan Respublikasının qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla “Gömrük dəyərinin müəyyən edilməsinin vahid Metodikası” sənədi Dövlət Gömrük Komitəsi sədrinin 2023-cü il 11 avqust tarixli 3-33/3-2-000212/2023 nömrəli sərəncamı ilə təsdiq edilmiş və Komitəsinin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Metodikada əks olunan üsulların və proseslərin mexanizmlərinin rəqəmsallaşdırılması məqsədilə aşağıdakı texnoloji tapşırıqlar yerinə yetirilmişdir:

Gömrük dəyərinin müəyyən edilməsinin 1-ci üsulunun (yəni sövdələşmə üsulu) rəqəmsallaşdırılması yekunlaşdırılmış və 1-ci üsul üzrə məhdudiyyətlərin, çarpaz yoxlama

alqoritmlərinin və qaydaların tətbiqinə başlanılaraq "EGB" elektron gömrük bəyannaməsi platformasında yerləşdirilmiş;

Gömrük işinin bütün sahələrində vacib amil kəsb edən gömrük bəyannaməsinin 31-ci qrafasının ("malların təsviri") strukturunun formalaşdırılması beynəlxalq təcrübə nəzərdən keçirilməklə 551 adda XİFMN kodları üzrə malların özünəməxsus göstəriciləri müəyyən edilmişdir.

### 1.7. Gömrük tariflərinin tənzimlənməsi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına əsasən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemində (VAİS) gömrük rüsumları və xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə müvafiq əlavə və dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 fevral tarixli 32 saylı Qərarı ilə soğana tətbiq edilən spesifik tarif dərəcəsi ləğv edilmişdir. Qeyd olunan məlumatların Komitənin VAİS sisteminə yerləşdirilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 fevral tarixli 40 saylı Qərarı ilə antiinflyasiya tədbirləri çərçivəsində bir sıra malların tarif dərəcələri "0" faizə endirilmiş və məlumatların Komitənin VAİS sisteminə yerləşdirilməsi təmin edilmişdir.

Preferensial mənşə üzrə xüsusi nəzarət tələb edilən və idxalatçılar tərəfindən gömrük ödənişlərindən yayınma məqsədilə yanlış bəyan edilən alt yarımmövqeləri və yayındırıcı kodları əhatə edən müvafiq risk profilləri hazırlanaraq Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə daxil edilmişdir. Yaradılmış risk profilləri ilkin mərhələdə 175 alt yarımmövqeni və müvafiq preferensial ölkələri (tarif kvotaları nəzərə alınmaqla) əhatə etmişdir. Yeni risk profillərinin yaradılması və VAİS-ə yerləşdirilməsi istiqamətində işlər davam etdirilir.

2022-ci il üzrə orta və ortaçəkili tarif dərəcələri barədə məlumatlar 2023-cü ildə Komitənin rəsmi saytında yerləşdirilmiş və qeyd olunan məlumatların Dünya Bankına ötürülməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və xarici dövlətlərin Azərbaycan Respublikasındakı səfirlikləri vasitəsilə malın mənşəyini təsdiq edən sertifikatları imzalamaq səlahiyyəti olan vəzifəli şəxslərin imza və möhür nümunələrinin alınması davam etdirilmiş və onların yerli gömrük orqanlarına göndərilməsi, VAİS sisteminə yerləşdirilməsi təmin edilmişdir.

"Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Xarici ticarət və ticarət tarifləri işçi qrupunun 2023-cü il üçün Fəaliyyət Planı"na dair Azərbaycan Respublikasının Dövlət Gömrük

Komitəsinin təkliflərinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə göndərilməsi təmin edilmişdir.

“Gömrük ekspertizasının nəticələrinə dair ekspert rəylərinin elektron bazasının yaradılması haqqında” Komitənin 27 sentyabr 2022-ci tarixli sərəncamına uyğun olaraq Mərkəzi Gömrük Ekspertizası İdarəsi tərəfindən verilən ekspert rəylərinin VAİS-ə inteqrasiya edilməsi və reyestrinin aparılması təmin edilmiş və bu istiqamətdə Komitənin ərazi və ixtisaslaşdırılmış gömrük idarələrinə əməli köməklik göstərilmişdir.

Mərkəzi Gömrük Ekspertizası İdarəsi tərəfindən verilən rəylərin və gömrük orqanları tərəfindən edilən müraciətlərin monitorinqinin aparılması və müraciətlərin avtomatlaşdırılması məqsədilə “Gömrük ekspertizasının aparılması üçün müraciətlərin edilməsi və ekspert rəylərinin verilməsi işinin avtomatlaşdırılması haqqında” Komitənin 2023-cü il 2 fevral tarixli 1000/025 nömrəli sərəncamı təsdiq edilmiş və sərəncama uyğun olaraq VAİS-in “Hesabatlar və Təhlillər” bölməsində bütün rəylərin və sorğuların monitorinqi təşkil edilmişdir. Hazırda reyestrdə 3500-ə yaxın rəy mövcuddur.

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasından irəli gələrək Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və digər aidiyyəti qurumlarla birgə istehsal əhəmiyyətli xammal və aralıq məhsulların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodları müəyyənləşdirilmiş və sözügedən malların tarif dərəcələrinin aşağı endirilməsi üzrə işçi qaydada müzakirələr aparılmış və nəticə etibarilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 aprel tarixli 116 nömrəli Qərarı ilə 1 yanvar 2024-cü il tarixdən bir sıra (273 adda) xammal və aralıq məhsulların tarif dərəcələri 2031-ci ilədək “5” faiz və “0” faizə endirilmişdir.

### 1.8. Valyuta və ixrac nəzarəti üzrə tədbirlər.

Konsiqnasiya yolu ilə ixrac olunan malların müqabilində əldə olunan vəsaitlərin geri qaytarılmasına nəzarətin artırılması məqsədilə təkmilləşdirilməsi zəruri olan qanunvericilik aktlarına və görülməsi nəzərdə tutulan tədbirlərə dair təkliflər hazırlanaraq 6 fevral 2023-cü il tarixli 3-33/2-002139/2023 nömrəli məktubla Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin 3 aprel 2023-cü il tarixli 3-21/2-2998/2023 nömrəli məktubu ilə daxil olmuş Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsinə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu layihələrinə Komitənin 6 aprel 2023-cü il tarixli 3-33/2-006291/2023 nömrəli məktubu ilə münasibət bildirilmişdir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin 13 noyabr 2023-cü il tarixli 3-21/2-11012/2023 nömrəli məktubu ilə daxil olmuş ixracda hesablaşmaların aparılma qaydalarının təkmilləşdirilməsinə dair normativ hüquqi akt layihələrinin müzakirə edilməsi

məqsədilə 5 dekabr 2023-cü il tarixində İqtisadiyyat Nazirliyində İqtisadiyyat Nazirliyinin, Dövlət Gömrük Komitəsinin və Mərkəzi Bankın nümayəndələri arasında birgə görüş keçirilmişdir.

İdxal-ixrac əməliyyatları üzrə xaricə pul köçürmələrinə nəzarət mexanizminin təkmilləşdirilməsi istiqamətində birgə fəaliyyətin koordinasiya edilməsi məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Respublikası Mərkəzi Bankı arasında (01 və 04 dekabr tarixlərində) birgə sərəncam imzalanmış və işçi qrupu yaradılmışdır. Ötən dövr ərzində işçi qrupun 11 dekabr 2023-cü il tarixdə ilk iclası keçirilmiş və qəbul edilmiş qərarlar müvafiq qaydada rəsmiləşdirilərək icraya yönəldilmişdir.

Hüquqi və fiziki şəxslərin konsiqnasiya yolu ilə ölkədən apardıqları malların müqabilində xarici valyuta vəsaitlərinin gətirilməsi ilə əlaqədar ərazi və ixtisaslaşdırılmış gömrük idarələri tərəfindən hüquqi addımlar atılmış, aparılmış araşdırmaların nəticəsi üzrə İnzibati Xətalar Məcəlləsinin 483-cü maddəsi, Cinayət Məcəlləsinin 208-ci maddəsinə əsaslanaraq toplanmış materiallar aidiyyəti üzrə müvafiq məhkəmə orqanlarına və Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilmiş və ya gömrük orqanları tərəfindən həmin şəxslər barəsində inzibati tənbeh tədbirləri tətbiq edilmişdir. Hesabat dövrü ərzində ölkəmizdən ixrac olunan malların müqabilində valyuta vəsaitlərinin vaxtında ölkəyə qaytarılması ilə bağlı xarici ticarət iştirakçıları ilə görüşlər keçirilmiş, sahibkarların ixrac etdikləri malların müqabilində əldə edilmiş valyuta vəsaitlərinin ölkəyə qaytarılması ilə bağlı üzləşdikləri çətinliklər öyrənilmiş, səsləndirilən məsələlərin həlli yolları ətraflı müzakirə edilmiş, təklifləri dinlənilmiş və sualları cavablandırılmışdır.

## Bölmə 2. Hüquqpozmalara qarşı mübarizə.

### 2.1. İstintaq-təhqiqat tədbirləri.

2023-cü il ərzində Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən hüquq mühafizə fəaliyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş bir sıra kompleks tədbirlər nəticəsində 34 113 hüquqpozma faktı aşkar edilmiş, 2022-ci il ilə (28 475 fakt) müqayisədə 19,8% artım qeydə alınmışdır.

Bu faktlardan 1681-i cinayət xarakterli (2022-ci il ilə (694 fakt) müqayisədə 2,4 dəfə çox) faktlar olmuşdur ki, onlardan:

189 fakt üzrə qaçaqmalçılıq (AR CM: maddə 206) cinayət əməli ilə bağlı tutulmuş qaçaqmalçılıq əşyalarının dəyəri 9 milyon 848 min manat;

130 fakt üzrə aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, satış məqsədilə saxlama və ya idxal etmə (AR CM: maddə 213-1) cinayət əməli ilə bağlı aşkar edilmiş aksiz markası ilə markalanmalı olan məhsulların (malların) dəyəri 489 min 440 manat;

1224 fakt üzrə xarici valyuta vəsaitlərini xaricdən qaytarmama (AR CM: maddə 208) cinayət əməli ilə bağlı qaytarılmayan xarici valyuta vəsaitlərinin dəyəri 579 645 020,89 ABŞ dolları və 129431,32 Avro;

131 fakt üzrə digər cinayət xarakterli faktlar üzrə aşkar edilmiş hüquqpozma predmetlərinin dəyəri 119 298,62 manat təşkil etmiş, həmçinin gömrük ödənişlərinin ödənilməsindən yayınma

(AR CM: maddə 209) cinayət əməli ilə bağlı müəyyən edilmiş 33 fakt üzrə 1698 nəfərin (1160 nəfər Azərbaycan Respublikası vətəndaşı, 538 nəfər xarici vətəndaş) barəsində müvafiq tədbirlər görülmüşdür.

Cinayət faktlarından 493-ü Xaçmaz Gİ, 400-ü Bakı BGİ, 206-sı HNBGİ, 118-i Biləsuvar Gİ, 107-si Tovuz Gİ, 77-si Sumqayıt Gİ, 75-i Naxçıvan BGİ, 63-ü Gəncə Gİ, 49-u Balakən Gİ, 36-sı Astara Gİ, 30-u DGK-nın Əməliyyat-İstintaq Baş İdarəsi, 19-u Dəniz Nəqliyyatı və Enerji Resursları BGİ və 8-i Aksizli mallar üzrə BGİ tərəfindən aşkar olunmuşdur.

Əvvəlki dövrdə başlanmış cinayət işlərinin 18,8%-i (32 cinayət işi) ağır, 55,3%-i (94 cinayət işi) az ağır, 25,9%-i (44 cinayət işi) isə böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına aid olmuşdur.

İstintaq idarəsində 80 material Azərbaycan Respublikası CPM-nin 39.1.2, 8 material Azərbaycan Respublikası CPM-nin 39.1.1, 4 material Azərbaycan Respublikası CPM-nin 40.4 və 2 material Azərbaycan Respublikası CPM-nin 39.1.3-cü maddələrinə əsasən ümumilikdə 94 material üzrə cinayət işinin başlanılması rədd edilmiş, 9 material birlikdə araşdırılıb hüquqi qiymət verilməsi üçün icraatda olan digər materiallara və ya cinayət işlərinə əlavə edilmiş, 14 material araşdırmanın davam etdirilməsi üçün aidiyyəti üzrə digər orqanlara göndərilmiş, 19 material isə növbəti ilə qalıq qalmışdır.

Ötən ildə İstintaq idarəsinin icraatında cəmi 249 cinayət işi olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 83 cinayət işi və ya 25% azdır.

İstintaq İdarəsinin icraatında olmuş 249 cinayət işinin 170-i hesabat dövründə başlanmış, 24-ü ötən ildən qalmış, 31-i başqa cinayət işlərindən ayrılmış, 22-nin icraatı təzələnmiş və 2-i digər orqanlardan daxil olmuşdur.

Hesabat dövründə istintaqı tamamlanmış cinayət işləri üzrə 162 nəfər təqsirləndirilən şəxs qismində cəlb edilmiş, onlardan 46 nəfəri barəsində məhkəmə tərəfindən həbs və 11 nəfəri barəsində ev dustaqlığı, 71 nəfəri barəsində istintaq orqanı tərəfindən başqa yerə getməmək haqqında iltizam və 34 nəfəri barəsində polisin nəzarəti altına vermə qətimkan tədbirləri seçilmişdir.

İstintaq idarəsi tərəfindən icraatına xitam verilmiş 4 cinayət işi üzrə 191775,29 manat, 13 cinayət xarakterli material üzrə 689112,79 manat olmaqla, ümumilikdə 880 888,08 manat məbləğində dövlət mülkiyyətinə vurulmuş ziyan ödətdirilmişdir.

Hesabat dövründə İstintaq idarəsinin müstəntiqləri tərəfindən cinayətlərin törədilməsinə imkan yaradan halların (səbəb və şəraitin) aradan qaldırılması üçün tədbirlər görülməsi məqsədilə gömrük orqanlarına və digər qurumlara 28 təqdimat verilmişdir.

Ötən il İstintaq idarəsində cinayət işlərinin istintaqı və materialların araşdırılması zamanı korrupsiya faktı və ya qulluq mənafeyi əleyhinə fakt aşkar edilmiş 7 material araşdırmanın davam etdirilib yekun hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilmişdir.

Komitənin Əməliyyat-İstintaq Baş İdarəsinin Təhqiqat şöbəsində 151 hüquqpozma faktı araşdırılmışdır ki, bu faktlardan 27-si cinayət xarakterli, 124-ü isə inzibati xəta faktları olmuşdur.

Aşkar edilmiş cinayət xarakterli faktlardan 12-si araşdırmanın davam etdirilməsi üçün aidiyyəti üzrə İstintaq idarəsinə verilmiş, 10-nu Azərbaycan Respublikası Baş Prokurorluğuna

göndərilmiş, 2 iş üzrə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilmiş, 3-ü növbəti yarımilə qalıq qalmışdır. Gömrük qaydaları əleyhinə aşkar edilmiş inzibati xəta faktlarından 68 iş baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilmiş, 45 iş üzrə təhqiqat orqanı tərəfindən inzibati tənbehvermə haqqında qərar qəbul edilmiş, 3 iş üzrə icraata xitam verilmiş, 3 iş üzrə inzibati icraatın başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilmiş, 5 iş növbəti yarımilə qalıq qalmışdır.

Hesabat dövründə məhkəməyə göndərilmiş inzibati işlərdən 22-si üzrə 38254 manat dəyərində siqaret, spirtli içki, kosmetoloji vasitələr və digər mallar müsadirə edilmiş, 16-sı üzrə 24661.2 manat cərimə tətbiq edilmiş, 3-ü üzrə icraata xitam verilmiş, 27-si üzrə qəbul edilmiş qərar barədə məlumat hesabat dövrünün sonunadək təhqiqat orqanına daxil olmamışdır.

Ötən il ərzində inzibati tənbehvermə haqqında qərarlar əsasında təhqiqat orqanı tərəfindən ümumilikdə 137783.95 manat cərimə tətbiq edilmiş, həmin cərimələrin 106554.35 manatının ödətdirilməsi təmin edilmiş, qalan 31229.6 manatının isə ödətdirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir. Həmçinin idarənin təhqiqat şöbəsi tərəfindən Azərbaycan Respublikası İXM-nin 505-ci maddəsi ilə olan 6 iş üzrə 45411.49 manat dövlət mülkiyyətinə vurulmuş ziyanın tam şəkildə ödətdirilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 saylı Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrasını təmin etmək və gömrük sərhədindən narkotiklərin qanunsuz keçirilməsinin qarşısını almaq məqsədilə gömrük orqanları tərəfindən (o cümlədən, digər hüquq-mühafizə orqanları ilə birlikdə) görülmüş qətiyyətli tədbirlər nəticəsində ötən il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 97 fakt (o cümlədən 3 fakt AR Dövlət Sərhəd Xidməti ilə birgə həyata keçirilmiş əməliyyat-axtarış fəaliyyəti nəticəsində) aşkar olunmuşdur (2022-ci il ilə (77 fakt) müqayisədə 26% çox).

Bu faktlar üzrə ümumilikdə 640 kq 940 qramdan çox narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları (o cümlədən, AR Dövlət Sərhəd Xidməti ilə birgə həyata keçirilmiş əməliyyat-axtarış fəaliyyəti nəticəsində 52 kq 84 qram marixuana, 1 kq tiryək, 212,8 qram metadon) qanunsuz dövriyyədən çıxarılmışdır.

Qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin 91%-ni daha ağır narkotik vasitə olan heroin təşkil etmiş, belə ki, 577 kq 153 qramdan çox heroin aşkar edilib götürülmüşdür. Bundan əlavə, 54 kq 871 qramdan çox marixuana, 1 kq 126 qramdan çox tiryək, 750,831 qr. kokain, 599,580 qr. metadon, 151,205 qr. həşiş, 1,8 qr. oksikodon, 6 kq 188 qr. çox metamfetamin, 18,202 qr. MDMA, 8,5 fenobarbital, 3,1 qr. klobazam və digər maddələr qanunsuz dövriyyədən çıxarılmışdır.

2023-cü il ərzində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 99 nəfər (93-ü kişi, 6-sı qadın olmaqla) - 32 nəfər Azərbaycan Respublikası vətəndaşı, 67 nəfər əcnəbi (32 Türkiyə, 22 İran, 5 Rusiya, 3 Gürcüstan, 2 Türkmənistan, 1 Özbəkistan, 1 Pakistan, 1 Tacikistan vətəndaşı) barəsində müvafiq tədbirlər görülmüş, 4 halda bu əməlləri törədən cinayətkar dəstə ifşa edilmişdir.

Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları 19 halda İrandan, 2 halda Türkiyədən, 2 halda Rusiyadan, 3 halda Gürcüstandan, 1 halda Hindistandan, 1 halda Polşadan Azərbaycana gətirilərkən, 1 halda Azərbaycandan Yeni Zelandiyaya aparılarkən, 64 halda isə tranzit yolla (36 halda İran-Azərbaycan-Türkiyə, 6 halda İran-Azərbaycan-Gürcüstan, 8 halda İran-Azərbaycan-Rusiya, 1 halda İran-Azərbaycan-Rumıniya, 1 halda İran-Azərbaycan-Belarus, 1 halda İran-Azərbaycan-Türkiyə-Niderland, 1 halda İran-Azərbaycan-Türkiyə-Bolqarıstan, 1 halda İran-Azərbaycan-Türkiyə-Almaniya, 1 halda İran-Azərbaycan-Türkiyə-Böyük Britaniya, 1 halda Gürcüstan-Azərbaycan-İran, 1 halda Gürcüstan-Azərbaycan-İran-Tacikistan, 1 halda Türkiyə-Azərbaycan-Rusiya, 1 halda Gürcüstan-Azərbaycan-Özbəkistan, 1 halda Gürcüstan-Azərbaycan-Türkmənistan, 1 halda Gürcüstan-Azərbaycan-Rusiya, 1 halda Türkiyə-Gürcüstan-Azərbaycan-Rusiya, 1 halda Türkiyə-Gürcüstan-Azərbaycan-Qazaxıstan) keçirilərkən, 4 halda isə ölkə daxilində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanmışdır.

Hesabat dövründə həmçinin gömrük orqanlarının əməkdaşları tərəfindən 58 fakt üzrə ümumilikdə 1644,508 qr. (8 qr. baklofen, 518,5 qr. boldenon, 0,34 qr. clonidin, 90 qr. dehidroxlormetiltestosteron, 162,3 qr. drostanolon, 55 qr. matandienon, 92,225 qr. nandrolon, 96 qr. oxsandrolone, 69,375 qr. preqabalin, 60 qr. qabapentin, 98,55 qr. stanozolol, 133,763 qr. tramadol, 167,725 qr. trenbolon, 0,43 qr. tropikamid, 0,3 qr. zopiklon, 7 qr. methenolone, 5 qr. mesterolone, 80 qr. danazol) (2022-ci il ilə müqayisədə 2,4 dəfə artım) və 87528 ədəd sibutramin (2022-ci il ilə müqayisədə 5 dəfə artım) tərkibli güclü təsiredici maddələr qanunsuz dövriyyədən çıxarılmışdır.

Həmçinin sözügedən dövr ərzində gömrük orqanları tərəfindən 1 fakt üzrə zəhərli maddə hesab olunan 50,265 qram civə aşkar olunaraq götürülmüşdür.

"Valyuta tənzimi haqqında" Qanuna və digər qanunvericilik aktlarına əsasən gömrük orqanları valyuta və valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 227967 ABŞ dolları, 7800 avro, 7 618 000 rus rublu, 2 303 983.9 manat dəyərində 7710 ədəd qızıl zinət əşyaları və 1504.020 qram qızıl, 251 841.78 manat dəyərində 5899 ədəd gümüş zinət əşyaları və 59496 qram gümüş kütlələr (külçə), 59 938.5 manat dəyərində 37,682 karat qiymətli daşlar, 97300 manat dəyərində 5 ədəd qızıl saat aşkar olunmuşdur.

Bundan başqa, hesabat dövründə gömrük orqanları tərəfindən 400 447 manat dəyərində 114 279 ədəd elektron siqaret, 755 759 manat dəyərində 744 ədəd mobil telefon və 39 ədəd mobil telefon aksesuarları, 208 035 manat dəyərində məişət texnikası və əşyaları, 594 894 manat dəyərində avtomobil ehtiyat hissələri, 24 470 manat dəyərində bitkilər, 65 ədəd odlu silah patronu, 47 ədəd gizli qaydada informasiya alınması üçün texniki vasitələr, 59 249 ədəd pirotexnika, 14 ədəd soyuq silah və digər mallar tutulmuşdur.

Eyni zamanda, sözügedən dövrdə gömrük orqanları tərəfindən 58 hüquqpozma faktı üzrə 223 183 manat dəyərində tibbi ləvazimatların, 944 325 manat dəyərində dərman vasitələrinin və 44 876 manat dəyərində qida əlavələrinin qanunsuz dövriyyəsinin qarşısı alınmışdır.

2023-cü il ərzində kontrafakt, keyfiyyətsiz və ya istifadəyə yararsız mallarla mübarizə sahəsində də profilaktik tədbirlər gücləndirilmiş, həyata keçirilmiş tədbirlər nəticəsində istifadəyə yararsız hesab olunmuş 26 qutu "Senator Grand Virgina" və 11 qutu "Marlboro touch one" markalı

siqaretlər, kontrafakt hesab olunmuş 8 ədəd "İphone 14 Pro Max" markalı mobil telefon, 10 rulon saxta aksiz markaları aşkar edilərək hüquqpozmanın predmeti kimi götürülmüşdür.

Hesabat dövründə həmçinin Azərbaycan Respublikasının və xarici ölkələrin bədii, tarixi və arxeoloji sərvətlərin qorunması sahəsində mədəni, tarixi əhəmiyyət kəsb edən və arxeoloji sərvətlərin siyahısına aid olan 420 ədəd metal pul və Azərbaycan Respublikasının Milli Mədəniyyət Əmlakının Dövlət Siyahısına və Mədəni Sərvətlərin Mühafizə Siyahısına daxil edilmiş mədəni sərvət hesab olunan 1 ədəd xalça hüquqpozmanın predmeti kimi saxlanılmışdır.

Hesabat dövründə heyvan və bitkilər aləminin qorunması sahəsində də profilaktik tədbirlər gücləndirilməklə 7168 ədəd CİTES obyekti olan tibb zəlisinin gömrük ərazisindən aparılmasının qarşısı alınmışdır.

Hesabat dövründə gömrük orqanları tərəfindən alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatlarının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması hallarının qarşısının alınması üçün həyata keçirilmiş tədbirlər nəticəsində aksiz markasız və ya digər qanunsuz yollarla ölkəyə gətirilməsinə cəhd göstərilən 4 605 285,50 manat dəyərində 36 138 000 ədəd xaricdə istehsal olunan siqaretlər, 12203,30 manat dəyərində 320,32 litr spirtli içkilər, həmçinin aksiz markalarının tətbiqi qaydalarının pozulması halları ilə əlaqədar Azərbaycan Respublikasının aksiz markası ilə markalanmış 21 litr spirtli içki saxlanılmışdır.

**2.2 Əməliyyat-axtarış fəaliyyəti.**

Hesabat dövründə Komitənin Əməliyyat idarəsinin icraatında ümumilikdə 71 axtarış işi olmuş, barələrində axtarış elan edilən 12 nəfər şəxslə bağlı zəruri əməliyyat-axtarış tədbirləri həyata keçirilərək onların olduqları yerlər müəyyən edilib istintaq orqanına təhvil verildikləri üçün həmin şəxslər barəsində olan axtarış işlərinə xitam verilmişdir.

Qeyd edilən 12 nəfərdən 1 nəfər İnterpol vasitəsilə Bolqarıstan Respublikasından Azərbaycan Respublikasına ekstradisiya olunmuş, həmçinin digər dövlətlərin hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyət nəticəsində bir nəfərin Türkiyə Respublikasından, bir nəfərin isə Rusiya Federasiyasından ölkəyə gətirilməsi təmin olunaraq aidiyyəti üzrə istintaq orqanına təhvil verilmişdir.

İcraatda olan axtarış işləri üzrə 54 nəfər şəxsin ölkə ərazisindən kənarda olduğu, 5 nəfər şəxsin isə ölkə ərazisində gizləndiyi müəyyən edilmiş, barəsində müvafiq qərar qəbul edilmiş 8 nəfər şəxs İnterpol vasitəsilə beynəlxalq axtarışa verilmişdir.

Barəsində məcburi gətirmə qərarı çıxarılmış və əməliyyat tapşırıqları ilə bağlı 102 nəfər şəxsin müəyyən edilərək istintaq orqanına təhvil verilməsi təmin edilmiş, habelə istintaq orqanından daxil olmuş 205 əməliyyat tapşırığı üzrə əməliyyat-axtarış tədbirləri həyata keçirilmişdir.

Komitənin Əməliyyat İdarəsinin əməkdaşları tərəfindən öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının "Əməliyyat-axtarış fəaliyyəti haqqında Qanun"un 10-cu maddəsinin tələblərinə uyğun olaraq Bakı şəhərində və bölgələrdə 20 əməliyyat-axtarış tədbiri həyata keçirilmişdir ki, həmin tədbirlər nəticəsində külli miqdarda müxtəlif qaçaqmalçılıq predmetlərinin, habelə mülki dövriyyəsi qadağan olunmuş və məhdudlaşdırılmış əşyaların Azərbaycan Respublikası ərazisinə gətirilməsinin qarşısı alınaraq qanunsuz dövriyyədən çıxarılmışdır.

Ötən il ərzində əməliyyat-axtarış tədbirləri çərçivəsində 182 risk profili və 72 risk qrupu yaradılmış, 415 nəqliyyat vasitəsi, 9 hüquqi şəxs, 10 mal kodu, 38 konteyner nəzarətə qoyulmuş, 18324 sayda obyekt barədə təşəbbüskar şəxslər məlumatlandırılmış, beynəlxalq əməkdaşlıq çərçivəsində xarici dövlət və təşkilatlardan daxil olan 12 sorğu üzrə əməliyyat tədbiri hazırlanmışdır. Əldə edilmiş operativ məlumatlara əsasən 5 inzibati və 7 cinayət işi başlanılmışdır.

Yük nəqliyyat vasitələrinin müşayiəti ilə əlaqədar olaraq 483039 ədəd GPS qurğusu quraşdırılmış 447 ədəd nəqliyyat vasitəsi fiziki müşayiətlə təyinat gömrük orqanına çatdırılmışdır. Marşrutdan çıxma ilə bağlı hesabat dövründə qeydə alınmış 15645 fakt üzrə 1252 nəqliyyat vasitəsinin sürücüsü inzibati qaydada məsuliyyətə cəlb edilmişdir.

### 2.3 İnzibati xətalar.

Ötən il ərzində Azərbaycan Respublikası gömrük orqanları tərəfindən aşkar olunmuş 32432 gömrük qaydaları əleyhinə inzibati xəta faktları (2022-ci il ilə müqayisədə (27781 fakt) 16,74 % artım) üzrə 2681 hüquqi şəxs (o cümlədən 1122 xarici hüquqi şəxs) və 29750 fiziki şəxs (o cümlədən 11214 xarici vətəndaş) inzibati məsuliyyətə cəlb edilmiş, göstərilən şəxslərə qarşı tətbiq edilmiş 3 milyon 660 min 678 manat cərimənin 2 milyon 522 min 765 manat məbləğinin və məhkəmə qərarları əsasında tətbiq edilmiş cərimənin 575 min 702 manat məbləğinin ödənilməsi təmin edilmiş, dəyəri 269 min 58 manat olan mallar məhkəmə orqanları tərəfindən müsadirə edilmişdir.

Gömrük qaydaları əleyhinə inzibati xətalar əsasən malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən gömrük nəzarətindən gizlədilməklə keçirilməsi, bəyan edilməməsi və ya düzgün bəyan edilməməsi, malların, nəqliyyat vasitələrinin və ya onlara aid sənədlərin müəyyən edilmiş müddətdə təyinat gömrük orqanına çatdırılmaması, onların gömrük ərazisindən müəyyən edilmiş müddətdə kənara aparılmaması, yaxud həmin əraziyə qaytarılmaması, qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsi, gömrük ödənişlərinin (borcunun) ödənilməsindən yayınma ilə əlaqədar olmuşdur.

### 2.4. Hüquqpozmalarla mübarizədə beynəlxalq əməkdaşlıq.

Ötən il ərzində hüquq mühafizə fəaliyyəti üzrə beynəlxalq əməkdaşlığın həyata keçirilməsi ilə bağlı bir sıra tədbirlər görülmüş, Komitənin Əməliyyat-İstintaq Baş İdarəsinin Xarici tərəfdaşlarla əməkdaşlıq şöbəsi tərəfindən əməliyyat, təhqiqat, eləcə də gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin digər istiqamətlərini əhatə edən 383 sənəd üzrə icraat həyata keçirilmişdir ki, bunlardan 145-i xarici ölkələrin gömrük və digər müvafiq səlahiyyətli orqanlarından, beynəlxalq və regional təşkilatlardan daxil olan sorğulara Dövlət Gömrük Komitəsinin birbaşa və ya dolayı cavablarını, 62-si Dövlət Gömrük Komitəsi tərəfindən aparılan araşdırmalar üzrə xarici ölkələrin gömrük və digər müvafiq səlahiyyətli orqanlarına verilən sorğuları, 176-sı beynəlxalq əməkdaşlıq üzrə digər məsələləri əhatə etmişdir. Məlumat-sorğu mübadiləsi Türkiyə Respublikası, Rusiya Federasiyası, Gürcüstan, Ukrayna, Qazaxıstan Respublikası, Qırğız Respublikası, Türkmənistan, İtaliya Respublikası, Almaniya Federativ Respublikası, Danimarka Krallığı, Latviya Respublikası, Estoniya Respublikası, Rumıniya, ABŞ,

İran İslam Respublikası, Belarus Respublikası, Moldova Respublikası, İspaniya Krallığı, Hindistan Respublikası, Birləşmiş Ərəb Əmirlikləri və Polşa Respublikasının gömrük və digər müvafiq səlahiyyətli dövlət qurumları ilə aparılmışdır.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, Müstəqil Dövlətlər Birliyi Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsi, Avropa İttifaqı, Ümumdünya Gömrük Təşkilatı (ÜGT-nin regional məlumat əlaqələndirmə qovşağı RILO-Moskva ilə qarşılıqlı fəaliyyət, ÜGT və BMTNCİ-nin birgə layihəsi olan Konteyner Daşınmalarına Nəzarət üzrə Qlobal Proqramı çərçivəsində fəaliyyətlər), İNTERPOL, Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzi, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə müvafiq əməkdaşlıq və məlumat mübadiləsi həyata keçirilmişdir.

Xarici tərəfdaşlarla əməkdaşlıq çərçivəsində Ümumdünya Gömrük Təşkilatının regional məlumat əlaqələndirmə qovşağı RILO-Moskvadan 13 halda, Rusiya Maliyyə Nazirliyi Federal Gömrük Xidmətindən (MN FGX) 12 halda, Avropa İttifaqının Fırıldaqçılıqla Mübarizə üzrə Agentliyindən 2 halda, Ukrayna Dövlət Gömrük Xidmətindən 1 halda və Şimali Makedoniya Respublikasının Gömrük Administrasiyasından 1 halda müxtəlif hüquqpozma predmetlərinin qanunsuz dövriyyəsi şübhəsi üzrə qabaqlayıcı məlumatlar daxil olmuş, 1 halda hüquqpozma predmetlərinin qanunsuz dövriyyəsi şübhəsi üzrə Rusiya MN FGX-yə qabaqlayıcı məlumat göndərilmişdir.

"CEN" (ÜGT-nin Gömrük hüquq mühafizə şəbəkəsi), "Containercomm" (ÜGT-nin CENcomm şəbəkəsində Konteyner Daşınmalarına Nəzarət üzrə Qlobal Proqrama dair platforma), "Global Shield" (ÜGT-nin CENcomm şəbəkəsində "Qlobal Qalxan" proqramı üzrə platforma), "RILO CIS Operational Platform" (ÜGT-nin CENcomm şəbəkəsində MDB ölkələri üzrə regional məlumat əlaqələndirmə qovşağının əməliyyat platformu), "PICS" (Beynəlxalq Narkotiklərə Nəzarət Şurasının narkotik vasitələrin və psixotrop maddələrin prekursorlarının qanunsuz dövriyyəsinin aşkar edilməsi faktları üzrə məlumat mübadiləsi sistemi), İqtisadi Əməkdaşlıq Təşkilatının qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına dair məlumat bazası və digər beynəlxalq məlumat mübadiləsi sistemləri ilə iş aparılaraq müvafiq məlumatların əldə edilməsi və mübadiləsi təmin edilmişdir.

## Bölmə 3. Gömrük nəzarətinin təkmilləşdirilməsi.

### 3.1. Gömrük risklərinin idarəedilməsi.

Ötən il gömrük orqanlarının fəaliyyətində süni intellektin tətbiqi istiqamətində məlumatların öncədən emalı hesabına yük və nəqliyyat vasitələrinin sürətli sərhəd keçidinə, biznes subyektlərinin əməliyyat xərclərinin və gömrük rəsmiləşdirilməsi müddətinin azalmasına şərait yaradan maşın öyrənmə alqoritmlərinə əsaslanan Avtomatlaşdırılmış Risk Analiz Sistemi (ARAS) hazırlanmışdır. 20 noyabr 2023-cü il tarixində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə Gülüstan sarayında keçirilmiş "Gömrük-Biznes Forumu 2023" tədbirində 2024-cü ildən tətbiqi nəzərdə tutulan ARAS-ın təqdimatı həyata keçirilmişdir.

Komitə sistemində "Rəsmiləşdirmə Risk Modulu"nun layihəsi və bununla əlaqədar olaraq 12 texniki tapşırığın hazırlanması təmin edilmişdir.

Risklərin avtomatlaşdırılmış idarəedilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə sərhəd əməliyyatları üzrə risk təhlillərinin aparılması zamanı qaçaqmalçılıq hallarına dair gizli saxlanc yerlərinin qruplaşdırılması və kodlaşdırılması həyata keçirilərək Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə (VAİS) inteqrə edilmişdir.

Dövlət Gömrük Komitəsi ilə Dövlət Vergi Xidməti məlumatlarının sintezi əsasında xarici ticarət iştirakçılarının portreti formalaşdırılmışdır. Həmin portret əsasında xarici ticarət iştirakçılarının uçot, iqtisadi və risk göstəriciləri əsas götürülməklə risk qiymətləndirilməsi aparıldıqdan sonra sərhəd risk modulundan istifadə etməklə, Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən, tranzit keçirilən malların və nəqliyyat vasitələrinin daşımalarını həyata keçirən yük nəqliyyat vasitələrinin daha çevik, şəffaf və vaxta qənaət edilməklə risk əsaslı avtomatlaşdırılmış buraxılışı həyata keçirilir.

İdxal və tranzit əməliyyatlarını həyata keçirən yük avtomobillərinin gömrük sərhəd buraxılış məntəqələrindən risk əsaslı avtomatlaşdırılmış keçidinin təmin edilməsi və sərhəd risk modulunun təkmilləşdirilməsi çərçivəsində qısa idxal bəyannaməsi və TIR EPD (BYD kitabçası ilə daşınma zamanı əvvəlcədən bəyanetmə) üzrə məlumatlar təqdim edildiyi təqdirdə ARAS tərəfindən seçilmiş risk profilinə uyğun olaraq emal edilməsi və nəqliyyat vasitələrinin gömrük sərhədindən buraxılışı üçün dəhlizlərin müəyyən edilməsi üçün texniki tapşırıq tərtib edilmiş, "Sərhəd risk modulu"nun Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə (VAİS) tam inteqrasiya edilməsi üzrə işlər davam etdirilmişdir.

Gömrük risklərinin idarəolunmasının avtomatlaşdırılması istiqamətində gömrük bəyannaməsi rəsmiləşdirilmə üçün göndərilməmişdən əvvəl müvafiq səhvlərin qarşısının alınması məqsədilə bəyannamənin qrafalarının məntiqi çarpaz yoxlanılma kombinasiyaları, eləcə də xüsusi prosedurlar üzrə aşkarlanmış risklər ilə bağlı təkliflər formalaşdırılaraq mümkün kombinasiyaların avtomatlaşdırılmasının təmin edilməsi üzrə işlər davam etdirilmişdir.

"Sərnişinlərə dair ilkin məlumat" (APİ) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin inkişaf etdirilməsi məqsədilə risk sisteminin tətbiqi ilə bağlı Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin nəzdində yaradılmış "Sərnişin məlumat mərkəzi"ndə (PIU) BMT-yə məxsus "goTravel" risk idarəetmə sisteminin quraşdırılması pilot qaydada başa çatdırılmışdır.

Rusiya-Gürcüstan sərhədində yerləşən "Yuxarı Lars" sərhəd keçid məntəqəsinin bağlanması səbəbindən tranzit əməliyyatlarının aparılmasına, xüsusilə Ermənistandan tranzit formada malların göndərilməsi nəzarətdə saxlanılmışdır.

**3.2. Gömrük auditi.**

Ötən il ərzində iki gömrük orqanının fəaliyyəti audit olunmuş və 1 gömrük orqanının azqiymətli və tezköhnələn malların alınmasının, istifadəsinin və uçotunun aparılması, həmçinin rəhbər vəzifəli şəxslərin işlərin icrasına nəzarəti üzrə fəaliyyətinin bütövlükdə 2022-2023-cü illər üzrə qiymətləndirilməsi aparılmışdır.

Aparılan audit nəticəsində 2.319.101,0 manat gömrük borcunun dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. Fəaliyyətində yol verdikləri nöqsanlara görə 1 əməkdaşa töhmət, 3 əməkdaşa irad, 9 əməkdaşa xəbərdarlıq elan edilmişdir.

**3.3. Əqli mülkiyyət hüquqlarının müdafiəsi.**

“Aqro-Vest DC” MMC-yə məxsus “Янтарь” “Янтарный свет”, “Дары янтаря” və “Янтарный край” əmtəə nişanı adı altında mallar gömrük reyestrinə daxil edilmişdir. Ümumilikdə, Komitənin reyestrində tərkibində əqli mülkiyyət hüquqları obyekti olan əmtəə nişanlarının sayı (19 şirkətə məxsus olmaqla) 48-ə çatmışdır.

**3.4. Baytarlıq, fitosanitar və sanitariya tədbirləri.**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Qəhvəyi mərmər bağacığına qarşı bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi haqqında” 2022-ci il 30 dekabr tarixli 819s nömrəli Sərəncamının 2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin əməkdaşları tərəfindən 17.01.2023-cü il tarixdən 01.04.2023-cü il tarixədək “Qırmızı Körpü” və “Mazımqara” gömrük-sərhəd buraxılış məntəqələrinin terminalları ərazisində 44016 (“Qırmızı Körpu” - 33807, “Mazımqara” - 10209) yük nəqliyyat vasitəsi dezinseksiya edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 iyul 2023-cü il tarixli 1-5/1-12467/2023/10862aid nömrəli göstərişi ilə daxil olmuş “Quş qripi xəstəliyinin qarşısının alınması üzrə dövlət qurumlarının və digər aidiyyəti subyektlərin əlaqəli Fəaliyyət Planı”nın 5.7-ci bəndinə əsasən quş qripi xəstəliyinin aradan qaldırılması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi nəzarətdə saxlanılmışdır.

Gündəlik olaraq sərhəd buraxılış məntəqələrindən, təyinat gömrük orqanları, vətəndaşlar və Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi tərəfindən baytarlıq, fitosanitar və sanitariya nəzarəti ilə bağlı daxil olan suallar (telefon və elektron poçt vasitəsilə) operativ qaydada araşdırılaraq cavablandırılmışdır. İdxal edilən baytarlıq, fitosanitar və sanitariya nəzarətinə aid malların icazə sənədlərinin mövcudluğunun və düzgünlüyünün Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) vasitəsilə mütəmadi monitorinqi aparılmışdır. Nəzarətin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən daxil olmuş xarici dövlətlərdə yayılmış yoluxucu heyvan xəstəliklərinə dair və həmin ölkələrdən idxal olunan heyvan və heyvan mənşəli məhsulların idxalına müvəqqəti məhdudiyyətlər barədə məlumatlar Komitənin aidiyyəti struktur bölmələrinə ötürülməklə qonşu ölkələrdən ölkəmizin ərazisinə keçən nəqliyyat vasitələrinin məcburi dezinfeksiyası təmin edilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 4 dekabr 2023-cü il tarixli 1-5/1-20771/2023 nömrəli göstərişində ölkələrarası tranzit heyvan daşımaları üzrə mövcud qanunvericiliyin tələblərinə uyğun zəruri tədbirlərin görülməsi ilə bağlı Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nin tələblərini nəzərə alaraq, ölkəmizin ərazisindən Rusiya Federasiyasından üçüncü ölkələrə tranzit daşınan heyvanların müvafiq baytarlıq nəzarəti prosedurlarının aparılması ilə yanaşı daşınan heyvanların

rifahının qorunması ilə bağlı tələblərin (yemləmə, suvarma və dincəlmə) yerinə yetirilməsi üçün "Rosselxoznadzor"un müraciəti əsasında İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsinin ərazisində yaradılmış dincəlmə məntəqəsinə çatdırılmasına nəzarətin həyata keçirilməsi, eyni zamanda gömrük qanunvericiliyinin tələblərinə riayət olunması mütəmadi nəzarətdə saxlanılmışdır.

Gömrük sərhəd buraxılış məntəqələrində aparılan əks-epidemik tədbirlərin gücləndirilməsi üçün Azərbaycana dəstək məqsədilə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən Dövlət Gömrük Komitəsinə təqdim edilməsi nəzərdə tutulan iki modul tipli izolyatorun Beynəlxalq Tibbi-Sanitariya Qaydaları çərçivəsində "Astara" və "Qırmızı Körpü" gömrük sərhəd buraxılış məntəqələrində yerləşdirilməsi, bununla əlaqədar tikinti və təchizat işləri yekunlaşmışdır.

Gömrük sərhəd buraxılış məntəqələrində xüsusi təhlükəli infeksiya şübhəsi ilə şəxslərin müvəqqəti təcrid olunması məqsədilə təchiz edilmiş tibbi izolyatorların işlək vəziyyətdə olması mütəmadi olaraq nəzarətdə saxlanılmışdır.

Xüsusi təhlükəli infeksiya epidemiyası ilə mübarizədə əks-epidemik tədbirlərin həyata keçirilməsi, habelə fövqəladə hal yarandıqda bir neçə saat ərzində maddi-texniki dəstəyin yerlərdə təmin olunması məqsədilə regional bölgü nəzərə alınaraq (Tovuz Gİ, Balakən Gİ, Xaçmaz Gİ, Biləsuvar Gİ və mərkəz ərazi üçün isə Mərkəzi Gömrük Hospitalı olmaqla) 5 ehtiyat anbarı yaradılmışdır.

Profilaktik dezinfeksiya, dezinseksiya və deratizasiya xidmətlərinin həyata keçirilməsi məqsədilə "Astara rayon Gigiyena və Epidemiologiya Mərkəzi" PHŞ ilə Astara Gömrük İdarəsi, "Biləsuvar rayon Gigiyena və Epidemiologiya Mərkəzi" PHŞ ilə Biləsuvar Gömrük İdarəsi arasında müqavilələr bağlanılmışdır.

Gömrük sərhəd buraxılış məntəqələrində sanitariya-gigiyena işinin təşkili və nəzarətin gücləndirilməsi məqsədilə gömrük əməkdaşları üçün ilk yardımın göstərilməsi mövzusunda mütəmadi təlimlər keçirilmişdir. Təlimlər rəsmi peşəkar təlimçi hüququnu qazanmış Sanitar Karantin Xidmətinin baş müfəttişləri tərəfindən həyata keçirilmişdir. Təlimlərə ərazi və ixtisaslaşdırılmış gömrük idarələrində çalışan 256 əməkdaş cəlb edilmişdir. Bununla yanaşı, ərazi və ixtisaslaşdırılmış gömrük idarələrinin 358 əməkdaşına xüsusi təhlükəli infeksiyalara qarşı əks-epidemik tədbirlərin həyata keçirilməsi mövzusunda təlim keçirilmişdir.

## Bölmə: 4. Gömrük inzibatçılığı.

### 4.1. Qanunvericiliyin təkmilləşdirilməsi.

Hesabat dövründə Dövlət Gömrük Komitəsi tərəfindən Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin aşağıda qeyd edilən Qərarı layihələri hazırlanmışdır.

#### 4.1.1. Qanun layihələri.

"Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu layihəsi və "Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında

Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu layihəsi hazırlanmış və aidiyyəti üzrə təqdim edilmişdir.

### 4.1.2. Fərman və sərəncam layihələri.

"Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, əlavə layihə olaraq hazırlanmış həmin Qanununun tətbiqi və "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;

"Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu və həmin Qanunun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;

"Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu və həmin Qanunun tətbiqi və qeyd olunan qanunun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük attaşelərinin) təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 dekabr tarixli 331 nömrəli Fərmanına dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;

"Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli 155 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;

"Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 622 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi;

"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli 170 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncam layihəsi və "Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan gömrük orqanlarının vəzifəli şəxslərinin və Dövlət Gömrük Komitəsi sisteminə işə götürülən digər işçilərin ştat sayı həddi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncam layihəsi hazırlanmışdır.

**4.1.3. Qərar layihələri.**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsinin hazırlanması və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 28 noyabr tarixli 517 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi Qaydası"nda dəyişiklik barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nda dəyişiklik edilməsi barədə Qərarı layihəsi;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 28 noyabr tarixli 517 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi Qaydası"nda dəyişiklik barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 28 noyabr tarixli 517 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi Qaydası"nda dəyişiklik barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi;

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 19 oktyabr tarixli 237 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi;

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 fevral tarixli 48 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 42 nömrəli Qərarı ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi hazırlanaraq razılaşdırılmaya təqdim edilmişdir.

**4.1.4. Qəbul olunmuş normativ hüquqi sənədlər.**

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dövlət büdcəsindən maliyyələşdirilən gömrük orqanları və təşkilatlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı;

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 aprel tarixli 102 nömrəli Qərarı;

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 12 iyul tarixli 176 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcazə sahibi, prosedur sahibi, habelə sərbəst zonada malların saxlancı, istehsalı, emalı, alqı-satqısı ilə məşğul olan şəxslərin öz əməliyyatlarının uçotunu aparması Qaydaları"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 aprel tarixli 103 nömrəli Qərarı və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 19 mart 2014-cü il tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 avqust tarixli 289 nömrəli Qərarı qəbul edilmişdir.

### 4.1.5. Tənzimləyici sənədlər.

Komitə daxili fəaliyyətin təşkili və tənzimlənməsi ilə bağlı aşağıdakı sənədlər qəbul edilmişdir:

Komitənin 14 fevral 2023-cü il tarixli 1000/036 nömrəli sərəncamı ilə "Xarici dövlətlərdə daimi qeydiyyatda olan nəqliyyat vasitələrinin Azərbaycan Respublikasında müvəqqəti qalma müddətinin uzadılması haqqında Metodika";

Komitənin 2023-cü il 29 mart tarixli 1000/081 nömrəli sərəncamı ilə "Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərin fəaliyyətinin qiymətləndirilməsinə dair Metodika";

Komitənin 2023-cü il 31 iyul tarixli 3-33/3-2-0002023/2023 nömrəli sərəncamı ilə "Malların daxildə emal və xaricdə emal xüsusi gömrük prosedurları altında yerləşdirilməsi üçün Ərizə forması";

Komitənin 2023-cü il 14 avqust tarixli 3-33/3-2-000213/2023 nömrəli sərəncamı ilə "Şəxslərə məxsus olan müvəqqəti saxlanc və gömrük anbarlarının reyestrinin aparılması və orada yerləşdirilən mallar ilə əlaqədar uçot məlumatların elektron mübadiləsinə dair Metodika" və "Anbarların reyestrə alınmasına dair Müraciət", "Anbarların yoxlanılmasına dair Akt", "Müvəqqəti saxlanc və gömrük anbarlarında yerləşdirilən mallara dair elektron Uçot" və "Gömrük prosedurunun müddətinin başa çatmasına dair Bildiriş formaları";

Komitənin 2023-cü il 4 sentyabr tarixli 3-33/3-2-000229/2023 nömrəli sərəncamı ilə "Mallardan dövlətin xeyrinə imtina edilməsi əməliyyatlarının tənzimlənməsinə dair Texnoloji Sxem";

Komitənin 2023-cü il 6 sentyabr tarixli 3-33/3-2-000231/2023 nömrəli sərəncamı ilə "Şəxsin müraciəti əsasında malların məhv edilməsi əməliyyatlarının tənzimlənməsinə dair Texnoloji Sxem";

Komitənin 2023-cü il 20 oktyabr tarixli 3-33/3-2-000284/2023 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən gömrük nəzarəti altında olan yük nəqliyyat vasitələrinin və onlarla daşınan malların gömrük sərhəd buraxılış məntəqələrində yoxlama tərəzilərindən keçirilməsinə dair Texnoloji Sxem";

Komitənin 2023-cü il 20 noyabr tarixli 3-33/3-2-000308/2023 nömrəli sərəncamı ilə "Səlahiyyətli İqtisadi Operator statusundan istifadəyə dair Metodiki Tövsiyə", "Səlahiyyətli İqtisadi Operator statusunun verilməsi şərtlərinin yoxlanılmasına dair İzahedici Təlimat", "Öz fəaliyyətini qiymətləndirmə sorğusu" və Komitənin 2023-cü il 27 dekabr tarixli 3-33/3-2-000340/2023 nömrəli sərəncamı ilə "Daşıyıcı vasitəsilə gömrük sərhədindən keçirilən malların onlar tərəfindən bəyan edilməsinə dair Metodikası" təsdiq edilmişdir.

Komitənin 2023-cü il 31 iyul tarixli 3-33/3-2-000201/2023 nömrəli sərəncam ilə "Bir əməkdaş-Bir bəyannamə" prinsipinin (malların gömrük rəsmiləşdirilməsi zamanı elektron qaydada təqdim olunan gömrük bəyannaməsinin yoxlanılması, bəyannamənin təsdiqi və onun əhatə etdiyi malların buraxılışı barədə qərarın bir gömrük əməkdaşı tərəfindən qəbul edilməsinə imkan yaradan) ərazi gömrük idarələrində (o cümlədən 3 avqust tarixindən etibarən Gəncə, Xaçmaz, Tovuz, Balakən, Biləsuvar və Astara Gömrük İdarələrində) tətbiqinə və Komitənin 2023-cü il 2 avqust tarixli 3-33/3-2-000205/2023 nömrəli sərəncamı ilə "İdxal olunan enerji məhsulları və aksizli mallara görə gömrük bəyannaməsi malların təqdim olunduğu gömrük orqanından fərqli gömrük orqanına təqdim olunarkən gömrük rəsmiləşdirilməsi zamanı səlahiyyət bölgüsünə dair Texnoloji Sxem" təsdiq edilmiş və Bakı Baş Gömrük İdarəsinin "KOB Evi" gömrük postunda pilot qaydada tətbiqinə başlanmışdır.

Bununla yanaşı fiziki şəxslər tərəfindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin tənzimlənməsi ilə bağlı yeni qaydaların layihəsi, "Nəqliyyat vasitələrinin və konteynerlərin gömrük möhürləri və plombları altında yüklərin daşınmasına buraxılmasına dair" sənədində dəyişiklik edilməsi lə bağlı layihəsi, "Azərbaycan Respublikasında BYD (Beynəlxalq Yük Daşımaları) kitabçası tətbiq edilməklə daşıyıcıların beynəlxalq yük daşımalarına buraxılması qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilməsinə dair layihə və Azərbaycan Respublikasının ərazisindən tranzit keçən malların və nəqliyyat vasitələrinin qeydiyyatına dair mövcud vəziyyət təhlil edilmiş, statistik nəticələrə

baxılmış və bu sahədə yaranan differensiasiyanın aradan qaldırılması məqsədilə vahid metodologiya layihəsi hazırlanmışdır.

**4.2. Gömrük ekspertizası.**

Hesabat dövründə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 fevral tarixli 34 nömrəli Qərarı ilə təsdiq edilmiş “Malların xaricdə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları” və 2014-cü il 14 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"na əsasən emal xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların eyniləşdirilməsi və eyni zamanda hasilat və orta hasilat normalarının müəyyən olunması ilə bağlı 1191 müraciətə baxılmışdır.

Ölkə ərazisinə idxal edilən nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi, onların qeydiyyata alınması və Avro-4 ekoloji normalarına uyğunluğunun yoxlanılması məqsədilə 77876 müraciətə baxılmış və 233 628 sınaq aparılmışdır. Baza məlumatlarının və standartların araşdırılması nəticəsində 71485 ədəd texniki eyniləşdirmə şəhadətnaməsi verilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Gömrük nəzarəti və rəsmiləşdirilməsi ilə əlaqədar olaraq bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan şəxslərin və ya onların nümayəndələrinin təşəbbüsü ilə malların gömrük ekspertizasının aparılması üçün alınan gömrük yığımlarının miqdarı” haqqında 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarına əsasən 2.573.582,8 manat məbləğində gömrük yığımları toplanaraq Dövlət Gömrük Komitəsinin büdcədənkənar inkişaf fonduna köçürülmüşdür.

“e-gömrük ekspertizası xidməti” vasitəsilə daxil olmuş 88 365 müxtəlif xarakterli sorğulara uyğun təmayülü üzrə ekspertizalar aparılaraq nəzarət obyektinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla tədqiqat nəticələrinə istinadən cavablandırılmışdır.

15 oktyabr 2023-cü il tarixindən etibarən malların tarif təsnifatının müəyyən edilməsi məqsədilə gömrük ekspertizasının aparılması üçün müraciətlərin qəbulu və qeydiyyatı Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) vasitəsilə aparılmış və ilin sonuna reyestrdə yerləşdirilmiş ekspert rəylərinin sayı 3700 çatdırılmış, ötən il ərzində malların təsnifat kodunun müəyyən edilməsi məqsədilə 272 “Məcburi qərar” qəbul edilmişdir.

2023-cü il ərzində Komitənin Mərkəzi Gömrük Ekspertizası İdarəsinin 11 əməkdaşı bilik və bacarıqlarının artırılması məqsədilə 6 beynəlxalq və yerli əhəmiyyətli təlimdə iştirak etmişlər.

**4.3 Tibbi xidmət**.

Hesabat ilində xüsusi təhlükəli infeksiya epidemiyası ilə mübarizə aparıldığı zaman operativ hərəkət planının gerçəkləşdirilməsi, habelə fövqəladə hal yarandıqda bir neçə saat ərzində maddi-texniki dəstəyin yerlərdə təmin olunması, şəxsi heyətin qoruyucu vasitələrlə təmin edilməsi və gömrük sərhəd buraxılış məntəqəsinin ərazisi üzrə xüsusi təhlükəli infeksiyalara qarşı əks-epidemik tədbirlərin həyata keçirilməsi məqsədilə 4 gömrük ərazisi üzrə ehtiyat anbarları yaradılmışdır. Bu anbarların ərazilər üzrə baş gömrük idarələrinin nəzdində təşkil edilməsi,

operativlik baxımından əlçatan olması zəruri və əlverişlidir. Ehtiyat anbarlarında saxlanılacaq ləvazimatlardan ancaq fövqəladə hallar zamanı istifadə olunması nəzərdə tutulmuşdur.

Tibbi xidmət sahəsində sanitar karantin xidməti tərəfindən yüksək keçid qabiliyyətinə malik gömrük sərhəd buraxılış məntəqələrində (“Mazımqara”, “Qırmızı Körpü”, “Samur”, “Biləsuvar”, “Astara”) müvəqqəti tibbi izolyatorlar təşkil edilmişdir. Bu tibbi izolyatorların işlək olmasına mütəmadi nəzarət olunur.

Hesabat dövründə Mərkəzi Hospitalda müayinə və müalicə işlərinin hər zaman ciddi nəzarət altında saxlanılması hospital rəhbərliyinin başlıca vəzifəsi olmuşdur. Hospitalın bütün şöbə və bölmələrinin ahəngdar işləməsinə, nizam-intizamın hər hansı bir şəkildə pozulmasına yol verilməməsinə, qarşıya çıxan problemlərin ən qısa zamanda aradan qaldırılması ilə bağlı işlər görülmüşdür.

1 iyun 2023-cü il tarixində Gəncə şəhərində yerləşən Gəncə Uşaq Evində valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmiş tibbi sosial aksiya keçirilmişdir. Aksiya zamanı Gəncə Uşaq Evində valideyn himayəsindən məhrum olmuş 100-ə yaxın uşaq kardioloji, oftalmoloji, travmatoloji, terapevtik və nevroloji müayinələrdən keçirilib və hər birinə kitab hədiyyə olunmuşdur.

9 iyun 2023-cü il tarixində B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu Mərkəzi Qan Bankının birgə təşkilatçılığı ilə həyata keçirilmiş “Qan ver, ümid ol” şüarı altında 14 iyun - Ümumdünya Qan Donoru Gününə həsr edilmiş növbəti könüllü qanvermə aksiyasında 150 gömrük əməkdaşı iştirak etmişlər.

13-14 iyun 2023-cü il tarixlərində Yevlax şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Yevlax şəhər Mərkəzi Xəstəxanasının tabeliyində olan Ailə Sağlamlıq Mərkəzində qazi və şəhid ailələrinin üzvləri üçün “15 iyun Milli Qurtuluş Günü”nə həsr edilmiş sosial tibbi aksiya keçirilmişdir. 2 günlük tibbi sosial aksiya zamanı 200-ədək şəxs USM, EKQ, EXO müayinələri, o cümlədən kardioloq, oftalmoloq, lor, travmatoloq cərrah, terapevt, uroloq, pediatr, nevroloq, mama ginekoloq, endokrinoloq, dermatovenerologdan ibarət Mərkəzi Gömrük Hospitalının 25 nəfər tibb heyəti tərəfindən müayinələrdən keçirilmişdir.

25 avqust 2023-cü il tarixində Tərtər Rayon Mərkəzi Xəstəxanasında Ümummili lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş qazi və şəhid ailələrinin üzvləri üçün sosial tibbi aksiya keçirilmişdir. Aksiya çərçivəsində Mərkəzi Gömrük Hospitalının USM, EKQ, EXO müayinələri, o cümlədən kardioloq, terapevt, uroloq, psixiatr, pediatr, nevroloq, mama ginekoloq, endokrinoloq, fizioterapevtdən ibarət 20 nəfərdən artıq tibb heyəti tərəfindən 200-ə yaxın qazi və şəhid ailəsi üzvü müayinədən keçirilmişdir.

26 avqust 2023-cü il tarixində Tərtər rayonunun işğaldan azad olunmuş Talış kəndində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş tibbi-sosial xeyriyyə aksiyası keçirilmişdir. Aksiya çərçivəsində Mərkəzi Gömrük Hospitalının USM, EKQ, EXO müayinələri, o cümlədən kardioloq, terapevt, uroloq, psixiatr, pediatr, nevroloq, mama ginekoloq, endokrinoloq, fizioterapevtdən ibarət 20 nəfərdən artıq tibb heyəti tərəfindən Talış kəndinin sakinləri müayinə edilmişdir.

Hesabat dövründə gömrük sərhəd buraxılış məntəqələrində xüsusi təhlükəli infeksiyalara yoluxmanın müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası ərazisinə daxil olan şəxslərə mütəmadi olaraq baxış keçirilmişdir.

Ötən il ərzində Mərkəzi Hospitalda 500 gömrük əməkdaşından SARS-CoV-2 virusunu müəyyən edən PR-PCR testi götürülmüşdür. Testlərin nəticələrinə görə 74 nəfər əməkdaşda yoluxma müəyyən olunmuş və COVID-19 diaqnozu təsdiq edilib. Qeyd edilən yoluxma halları barədə epidemioloji anamnez toplanmış və müvafiq qurumlara əks-epidemik tədbirlərin aparılmasına dair müvafiq göstəriş və tövsiyələr verilmişdir.

Ötən ilin sentyabr ayından başlayaraq Azərbaycan Respublikası ərazisində qızılca xəstəliyinə yoluxma hallarında artım müşahidə olunması ilə əlaqədar gömrük əməkdaşları arasında 1 yoluxma halı müəyyən edilmişdir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin təsdiq etdiyi xidmətlər zərfi nəticəsində Tibbi Xidmət İdarəsinin nəzdində fəaliyyət göstərən Mərkəzi Hospitala müraciətlərin sayında artım müşahidə olunmuşdur. Belə ki, ötən il ərzində 162 mindən artıq müraciət daxil olmuş, həmin dövrdə hospitalın laboratoriyalarında 227 mindən artıq laborator analiz aparılmış və 5827 xəstəyə 9641 halda cərrahi müdaxilə edilmişdir.

Hospitalda Azərbaycanda ilk dəfə ümumi anesteziya verilmədən eyni seansda ürək damarına stent və açıq cərrahi olaraq taxılan qapağın içinə yeni qapaq taxılması “valve in valve TAVİ (transaortic valve implantation)” əməliyyatı uğurla icra edilmişdir. Həmçinin İcbari Tibbi Sığorta üzrə xidmətlər zərfi çərçivəsində cari ilin avqust ayından etibarən orqan transplantasiyası əməliyyatları icra olunmağa başlanmış və 10-dan çox böyrək transplantasiyası əməliyyatı icra olunmuşdur.

Mərkəzi Hospitalın laboratoriyasının ISO 15189:2012 “Tibbi laboratoriyalar. Keyfiyyətə və səlahiyyətliliyə olan tələblər” beynəlxalq keyfiyyət standartına uyğunluğunun təmin edilməsi istiqamətində müvafiq işlər həyata keçirilir.

Tibbi Xidmət İdarəsi tərəfindən bilik və bacarıqların artırılması istiqamətində ötən il ərzində 50-dən çox forum, dəyirmi masa, elmi toplantı, təlim və seminarlar təşkil edilmiş, həmçinin əməkdaşların 30-dan çox yerli və beynəlxalq əhəmiyyətli tədbirdə iştirakı təmin edilmişdir.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi tərəfindən Bakı şəhərində, rayon və kəndlərdə qazi və şəhid ailələrinin üzvləri və ehtiyacı olan digər insanlar üçün 9 halda sosial tibbi aksiyalar həyata keçirilmişdir.

### 4.4. Biznes mühitinin yaxşılaşdırılması üzrə tədbirlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş “Malların daxildə emal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 aprel tarixli 102 nömrəli Qərarının qəbul edilməsi nəticəsində daxildə emal xüsusi gömrük prosedurundan istifadə imkanı genişləndirilmiş, sifariş müqaviləsi ilə yanaşı, malların prosedur sahibinin mülkiyyətinə keçməsini nəzərdə tutan alqı-satqı müqaviləsi əsasında da daxildə emal xüsusi gömrük prosedurundan istifadə imkanı yaradılmış, müraciət zamanı tələb olunan sənədlərlə bağlı sadələşdirmə həyata keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 12 iyul tarixli 176 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcazə sahibi, prosedur sahibi, habelə sərbəst zonada malların saxlancı, istehsalı, emalı, alqı-satqısı ilə məşğul olan şəxslərin öz əməliyyatlarının uçotunu aparması Qaydaları"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 aprel tarixli 103 nömrəli Qərarının qəbul edilməsi icazə sahibinə, prosedur sahibinə, habelə sərbəst zonada malların saxlancı, istehsalı, emalı, alqı-satqısı ilə məşğul olan şəxslərə öz əməliyyatlarının uçotunu kağız üzərində yazılı və ya elektron formada aparmaları üçün imkan yaradılmışdır. Elektron formada aparılan uçot əlavə vaxt itkisinin qarşısının alınması və gömrük orqanları tərəfindən müvafiq xüsusi gömrük proseduru üzərində məsafədən nəzarət üçün şərait yaratmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 26 avqust tarixli 289 nömrəli Qərarının qəbul edilməsi gömrük orqanlarının fəaliyyətin təkmilləşdirilməsinə şərait yaratmışdır.

"Gömrük yığımlarının məbləğləri"nə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi aidiyyəti üzrə rəy və təkliflərin bildirilməsi məqsədilə 15 may 2023-cü il tarixində aidiyyəti dövlət qurumlarına göndərilmiş və aidiyyəti orqanlardan daxil olmuş rəy və təkliflər əsasında layihənin yenidən işlənilməsinə başlanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 fevral tarixli 40 saylı Qərarı ilə antiinflyasiya tədbirləri çərçivəsində bir sıra malların tarif dərəcələri "0" faizə endirilmişdir.

Preferensial mənşə üzrə xüsusi nəzarət tələb edilən və idxalatçılar tərəfindən gömrük ödənişlərindən yayınma məqsədilə yanlış bəyan edilən alt yarımmövqeləri və yayındırıcı kodları əhatə edən müvafiq risk profilləri hazırlanaraq Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminə daxil edilmişdir. Yaradılmış risk profilləri ilkin mərhələdə 175 alt yarımmövqeni və müvafiq preferensial ölkələri (tarif kvotaları nəzərə alınmaqla) əhatə etmişdir. Yeni risk profillərinin yaradılması və VAİS-ə yerləşdirilməsi istiqamətində işlər davam etdirilir.

01 avqust 2020-ci il tarixdən 01 yanvar 2024-cü il tarixədək malları təsnifat kodu ilə bağlı 345 "Məcburi qərar" qəbul edilmişdir ki, bu da özəl sektor tərəfindən biznesin planlaşdırılması və daha şəffaf fəaliyyət mühitinin formalaşdırılmasına şərait yaratmışdır.

1 dekabr 2023-cü il tarixindən etibarən "Səlahiyyətli İqtisadi Operator" (SİO) statusunun pilot qaydada tətbiqinə və statusun alınması üçün müraciətlərin qəbuluna başlanılmışdır. Gömrük və vergi qanunvericiliyinə könüllü riayət edən, maliyyə dayanıqlılığı və şəffaf mühasibatlığı olan, biznes infrastrukturu təhlükəsizlik standartlarına cavab verən idxalatçılar, ixracatçılar, daşıyıcılar, gömrük təmsilçiləri və anbar sahibləri üçün elektron qaydada SİO statusunu əldə etmək imkanı yaradılmışdır.

## Bölmə 5. Ticarətin asanlaşdırılması tədbirləri.

### 5.1. Tranzit əməliyyatlarının sadələşdirilməsi.

Avropa İttifaqının maliyyə dəstəyi və İtaliya Gömrük və İnhisar Agentliyi ilə əməkdaşlıq çərçivəsində 1 iyun 2020 - 31 mart 2022-ci il tarixlərində həyata keçirilən "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (NCTS) qoşulma prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" tvinninq layihəsinin nəticəsi olaraq qanunvericiliyin uyğunlaşdırılması ilə bağlı təkliflər Gömrük Məcəlləsinə edilən dəyişiklik layihəsində nəzərə alınmış və Komitənin 10 aprel 2023-cü il tarixli 3-33/2-006430/2023 nömrəli məktubu ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur. Eyni zamanda, NCTS-in tətbiqi ilə əlaqədar digər üzv ölkələrin təcrübəsinin öyrənilməsi ilə bağlı qonşu dövlətlərə müraciət olunmuş və Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin dəstəyi ilə 11 dekabr 2023-cü il tarixdə Gürcüstan Gəlirlər Xidmətinin nümayəndələri ilə görüş keçirilərək NCTS-in tətbiqinin əsas aspektləri müzakirə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının 1.1.11.1-ci bəndinə əsasən 14-15 mart 2023-cü il tarixlərində Bakı şəhərində Transxəzər Beynəlxalq "Şərq-Qərb" Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi (Data pipeline) üzrə çoxtərəfli görüş keçirilmişdir. Görüşdə Azərbaycan Respublikası, Gürcüstan, Qazaxıstan Respublikası, Qırğız Respublikası, Özbəkistan Respublikası, Tacikistan Respublikası, Türkiyə Respublikası və Türkmənistanın gömrük xidmətlərinin rəhbərləri və təmsilçiləri, eləcə də Asiya İnkişaf Bankı, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı, BMT-nin Avropa İqtisadi Komissiyası, Dəmir Yolları Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatının nümayəndələri, o cümlədən TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin və Ümumdünya Gömrük Təşkilatının Baş katibləri iştirak etmişdir. Görüşdə Dövlət Gömrük Komitəsinin nümayəndələri tərəfindən Vahid Tranzit Portalı Konsepsiyasına dair təqdimat nümayiş etdirilmişdir.

14 mart 2023-cü il tarixdə Bakı şəhərində "Transxəzər Beynəlxalq "Şərq-Qərb" Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi (Data pipeline) üzrə çoxtərəfli görüşün Protokolu" imzalanmışdır.

Hüquqi bazanın yaradılması məqsədilə hazırlanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidməti, Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsi, Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti, Tacikistan Respublikası Hökuməti yanında Gömrük Xidməti və Özbəkistan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsi arasında "Transxəzər Beynəlxalq "Şərq-Qərb" Orta Dəhlizi boyu Vahid tranzit portalının yaradılması haqqında Çərçivə Sazişi" layihəsinin mətni aidiyyəti dövlət qurumlarından alınmış rəy və təkliflər nəzərə alınmaqla Dövlət Gömrük Komitəsi tərəfindən ümumiləşdirilərək qarşı tərəflərlə razılaşdırılması məqsədilə

28.10.2023-cü il tarixli 3-33/2-019260/2023 nömrəli məktubu ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir.

**5.2. Səlahiyyətli iqtisadi operator.**

Dövlət Gömrük Komitəsinin 20 noyabr 2023-cü il tarixli 3-33/3-2-000308/2023 nömrəli sərəncamına əsasən 1 dekabr 2023-cü il tarixindən etibarən "Səlahiyyətli İqtisadi Operator" (SİO) statusunun pilot qaydada tətbiqinə və statusun alınması üçün müraciətlərin qəbuluna başlanmışdır.

Bu sahədə fəaliyyətin tənzimlənməsi məqsədilə "Səlahiyyətli İqtisadi Operator statusundan istifadəyə dair Metodiki Tövsiyə", "Səlahiyyətli İqtisadi Operator statusunun verilməsi şərtlərinin yoxlanılmasına dair İzahedici Təlimat" və "Öz fəaliyyətini qiymətləndirmə sorğusu" təsdiq edilərək Komitənin rəsmi internet səhifəsində və xarici ticarət iştirakçılarının şəxsi kabinetlərində yerləşdirilmişdir.

"Səlahiyyətli İqtisadi Operator statusundan istifadəyə dair Metodiki Tövsiyə", "Səlahiyyətli İqtisadi Operator statusunun verilməsi şərtlərinin yoxlanılmasına dair İzahedici Təlimat" və "Öz fəaliyyətini qiymətləndirmə sorğusu" hazırlanmış və təsdiq edilmişdir.

**5.3. Yaşıl dəhliz iştirakçıları.**

Hesabat dövründə 248 xarici ticarət iştirakçısının "Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edilməsi ilə bağlı müraciətinə baxılmış, bunlardan 9 xarici ticarət iştirakçısına idxal, 9 xarici ticarət iştirakçısına ixrac əməliyyatları üzrə, ümumilikdə 18 xarici ticarət iştirakçısına "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ verilmişdir. Həmçinin 1 xarici ticarət iştirakçısına həm idxal, həm də ixrac əməliyyatları üzrə "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ verilmişdir. İdxal əməliyyatları üzrə 15, ixrac əməliyyatları üzrə 2 xarici ticarət iştirakçısının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ ləğv edilmişdir.

Hüquqpozma faktlarının araşdırılması nəticəsində cari il ərzində idxal əməliyyatları üzrə 9, ixrac əməliyyatları üzrə 1 xarici ticarət iştirakçısının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ dayandırılmışdır.

"Yaşıl dəhliz" buraxılış sisteminin səmərəliliyinin və məmnuniyyət səviyyəsinin ölçülməsi, mövcud sistemdən istifadə zamanı qarşıya çıxan çətinliklər və onların həlli ilə bağlı təkliflər barədə məlumatların toplanılması məqsədilə "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etmiş xarici ticarət iştirakçılarının şəxsi kabinetlərində sorğu keçirilmiş və sorğunun nəticələrinə müvafiq olaraq Komitənin 20 fevral 2023-cü il tarixli 1000/043 nömrəli sərəncamı ilə tədbirlər planı təsdiqlənmişdir.

**5.4. Birbaşa və dolayı təmsilçilik.**

Hesabat dövründə 401 xarici ticarət iştirakçısı birbaşa, 92 xarici ticarət iştirakçısı isə dolayı gömrük təmsilçiliyi fəaliyyəti göstərmək üçün Komitənin reyestrinə daxil edilmişdir.

Malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə gətirilməsi, gömrük ərazisindən aparılması, yaxud tranziti ilə əlaqədar olaraq birbaşa təmsilçiliyin həyata keçirilməsi üçün 2019-

cu ilin iyul ayından etibarən xarici ticarət iştirakçıları tərəfindən Dövlət Gömrük Komitəsinə edilmiş 2540 müraciətdən hal-hazırda aktiv 2485 şirkət və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin adı birbaşa gömrük təmsilçiliyi fəaliyyətinin həyata keçirilməsi üçün Komitənin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemində (VAİS) reyestrə daxil edilmiş və 2280 şəxsin asan imzaları aktivləşdirilərək onlara birbaşa təmsilçilik fəaliyyəti göstərmək üçün səlahiyyət verilmişdir.

**5.5. Rüsumsuz ticarət mağazaları.**

“Viza PB” Məhdud Məsuliyyətli Cəmiyyətinə Naxçıvan Muxtar Respublikası, Culfa və Sədərək rayonlarında, eyni zamanda Naxçıvan Beynəlxalq Hava Limanı ərazisində;

“Port of Baku Duty Free” Məhdud Məsuliyyətli Cəmiyyətinə “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin ərazisində;

“Duty Free Az İnternational” Məhdud Məsuliyyətli Cəmiyyətinə Heydər Əliyev Beynəlxalq Aeroportu “Terminal-1” və “Terminal-2” ərazisində rüsumsuz ticarət mağazasının yaradılmasına dair icazələr verilmişdir.

**5.6. Beynəlxalq Yük Daşımaları.**

8 hüquqi şəxsə BYD kitabçasından istifadə edilməklə beynəlxalq yük daşımalarında iştirak etmək üçün icazə verilmiş və 2 fiziki şəxsin BYD kitabçasından istifadə etməklə beynəlxalq yük daşımalarında iştirak etmək hüququ bərpa edilmişdir.

**5.7. Müvəqqəti saxlanc anbarları.**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş “Malların saxlanc xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları”nın və 2013-cü il 3 may tarixli 73 nömrəli Qərarı ilə təsdiq edilmiş “Müvəqqəti saxlanc anbarlarının və gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair Tələblər”in şərtləri yoxlanılmaqla 7 hüquqi şəxsin müraciəti üzrə 11 saxlanc yeri “gömrük anbarı” kimi qeydiyyata alınmışdır.

Eyni zamanda, “Yaşıl dəhliz” buraxılış sistemindən daimi istifadə hüququ əldə etmiş 35 xarici ticarət iştirakçısına məxsus anbarlar qeydə alınaraq idxal olunan malların birbaşa anbarlarına aparılmasına buraxılış imkanı yaradılmışdır.

## Bölmə 6. Beynəlxalq əməkdaşlıq.

**6.1. Beynəlxalq, regional və ikitərəfli əməkdaşlıq.**

Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalara və gömrük işi sahəsində imzalanmış ikitərəfli sazişlərə müvafiq olaraq, cari il ərzində xarici ölkələrin gömrük xidmətlərinə gömrük işi sahəsində inzibati yardım göstərilməsi məqsədilə 264 sorğu göndərilmiş və 96 sorğuya cavab alınmışdır.

Dövlət Gömrük Komitəsi tərəfindən müxtəlif təyinatlı 16 regional və beynəlxalq səviyyəli tədbir, Komitə rəhbərliyi ilə xarici ölkələrin gömrük administrasiyası rəhbərləri, beynəlxalq təşkilatların rəhbərləri və diplomatik korpus nümayəndələri arasında 44 ikitərəfli görüş keçirilmişdir.

Gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə saziş, protokol və əməkdaşlıq sahəsində digər sənədlərin hazırlanması istiqamətində aşağıdakı işlər görülmüşdür:

14 mart 2023-cü il tarixində Bakı şəhərində "Transxəzər Beynəlxalq "Şərq-Qərb" Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi (Data pipeline) üzrə çoxtərəfli görüşün Protokolu" imzalanmışdır;

5 aprel 2023-cü il tarixində Düşənbə şəhərində "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Tacikistan Respublikası Hökuməti yanında Gömrük Xidməti arasında Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında keçirilən mal və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Protokol" imzalanmışdır;

3 oktyabr 2023-cü il tarixində Bakı şəhərində "Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Təşkilatının Qabaqcıl Tranzit Sisteminin və Ümumi Məlumat Mübadiləsinin sınaq mərhələsinin həyata keçirilməsi haqqında Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan gömrük orqanları arasında Anlaşma Memorandumu" imzalanmışdır;

31 oktyabr 2023-cü il tarixində Moskva şəhərində "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında Azərbaycan-Rusiya dövlət sərhədindəki avtomobil buraxılış məntəqələrində gözlənilməz halların xəbərdar edilməsi və nəticələrinin aradan qaldırılması sahəsində qarşılıqlı fəaliyyət haqqında Saziş" imzalanmışdır;

15 noyabr 2023-cü il tarixində  Bakı şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikası Ticarət Nazirliyi arasında gömrük məsələləri üzrə yüksək səviyyəli görüşün Protokolu imzalanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidməti, Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsi, Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti, Tacikistan Respublikası Hökuməti yanında Gömrük Xidməti və Özbəkistan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsi arasında "Transxəzər Beynəlxalq "Şərq-Qərb" Orta Dəhlizi boyu Vahid tranzit portalının yaradılması haqqında Çərçivə Sazişi" və "Azərbaycan Respublikası Hökuməti ilə Yaponiya Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Daxili İşlər Nazirliyi arasında ayrıca hallar üzrə fərdi xarakter daşımayan məlumatların mübadiləsinə dair Anlaşma Memorandumu" layihələrinin ümumiləşdirilmiş mətni qarşı tərəflərlə razılaşdırılması, eləcə də "Ali təhsilin tədris proqramları və əlavə peşə təhsili proqramları üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin gömrük xidmətləri üçün

kadrların hazırlanması haqqında Saziş” layihəsi respublikanın aidiyyəti dövlət strukturları ilə razılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

“Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin gömrük orqanları tərəfindən nəqliyyat (daşınma) və kommersiya sənədlərinə gömrük orqanlarının möhür və ştamplarının vurulması qaydası haqqında Saziş” üzrə aidiyyəti dövlət qurumlarından alınmış rəylər ümumiləşdirilərək MDB GXRŞ Katibliyinə göndərilmişdir.

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin statistikasına dair məlumat mübadiləsi sahəsində əməkdaşlıq haqqında Protokol” layihəsinin ümumiləşdirilmiş mətni qarşı tərəflə razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə göndərilmişdir.

“Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qırğız Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidməti arasında gömrük idarəetməsinin təkmilləşdirilməsi məqsədilə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş” layihəsinin imzalanma yeri və tarixinə münasibətin bildirilməsi barədə sorğu qarşı tərəfə göndərilmişdir.

“Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol”un imzalanmaya tam hazırlanması təmin edilmişdir.

“Azərbaycan Respublikası və Rusiya Federasiyası əraziləri arasında daşınan mallara və Azərbaycan Respublikası və Rusiya Federasiyası əraziləri arasında yük daşımalarını həyata keçirən nəqliyyat vasitələrinə münasibətdə gömrük və dövlət nəzarətinin digər növlərinin həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Saziş” layihəsinə dair aidiyyəti dövlət strukturlarının rəylərinin nəzərdən keçirildiyi və bu sahədə beynəlxalq təcrübənin öyrənildiyi barədə məktub Rusiya Federal Gömrük Xidmətinə göndərilmişdir.

“Azərbaycan Respublikasının Hökuməti ilə Vyetnam Sosialist Respublikasının Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş” layihəsi münasibət bildirilməsi üçün qarşı tərəfə təqdim edilmişdir.

## Bölmə 7. Fəaliyyətin təkmilləşdirilməsi.

### 7.1. İnfrastruktur layihələr.

Xaçmaz Gömrük İdarəsinin “Xanoba” dövlət sərhədindən buraxılış məntəqəsinin kompleks tikintisi və Astara çayı üzərində yeni inşa edilmiş avtomobil körpüsünün qarşısında avtomobil yolu üzərində Astara Gömrük İdarəsinin modul tipli dövlət sərhədindən buraxılış məntəqəsinin tikintisi başa çatdırılmışdır. Həmçinin Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının tikintisi işləri tamamlanmaq üzrədir.

Mərkəzi Gömrük Hospitalının mövcud binasında qəzalı vəziyyətdə olan fasadın yeni üzlük daşlarının dəyişdirilməsi və Mərkəzi Gömrük Hospitalının tabeçiliyinə verilmiş poliklinika binasının ərazisində yeni inşa olunacaq stomatologiya, reabilitasiya və inzibati korpusun layihələndirilməsi işləri başa çatdırılmışdır.

Qaradağ rayonu, Xocasən-Lökbatan şossesinin sağ tərəfində yerləşən Dövlət Gömrük Komitəsinin balansında olan 0.7 hektar torpaq sahəsində anbar və yardımçı binaların tikintisi üçün layihə-smeta sənədləri hazırlanmış və əraziyə asfalt örtüyü vurulmuşdur.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası dövlət sərhədində, Zəngilan rayonu ərazisində "Ağbənd" qəsəbəsi yaxınlığında dövlət sərhədindən buraxılış məntəqəsinin layihəsi aidiyyəti qurumlarla razılaşdırılır və layihələndirilmə mərhələsindədir.

Azərbaycan Respublikası ilə Gürcüstan arasında Tovuz Gömrük İdarəsinin "Sadıxlı" dövlət sərhədindən buraxılış məntəqəsinin mövcud ərazisinə uyğun layihə-smeta sənədləri hazırlanır.

"Azərbaycan Respublikası və İran İslam Respublikası dövlət sərhədindən "Astara" (Azərbaycan Respublikası) - "Astara" (İran İslam Respublikası) dövlət sərhəd keçid-buraxılışı məntəqələri ərazisində Astaraçay çayı üzərində yeni körpünün tikildiyini nəzərə alaraq, həmin ərazidə yeni dövlət sərhədindən buraxılış məntəqəsinin və terminalın tikintisi üzrə torpaq sahəsinin ayrılması üçün tədbirlər görülmüş və layihə-smeta sənədləri hazırlanması işlərinə başlanmışdır.

Tovuz Gömrük İdarəsinin "Qırmızı Körpü", Balakən Gömrük İdarəsinin "Mazımqara", "Biləsuvar", Xaçmaz Gömrük İdarəsinin "Şirvanlı" və Astara Gömrük İdarəsinin dövlət sərhədindən buraxılış məntəqəsinin əsaslı təmir və yenidənqurulması üzrə layihə-smeta sənədləri, həmçinin Şərqi Zəngəzur Gömrük İdarəsinin "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin tikintisi və Tovuz Gömrük İdarəsinin cari təmir işləri üzrə layihə-smeta sənədlərinin hazırlanması davam edirilmişdir. Gəncə Gömrük İdarəsi, Tovuz Gömrük İdarəsi və Tovuz Gömrük İdarəsinin "Qırmızı körpü" dövlət sərhədindən buraxılış məntəqəsində cari təmiri işləri başa çatdırılmışdır.

Sumqayıt Gömrük İdarəsi və "Azərterminalkompleks" Birliyinin ərazisində müvvəqəti saxlanc anbarının tikintisi, Aksizli Mallar üzrə Baş Gömrük İdarəsinin ərazisində rəsmiləşmə zalı və müvəqqəti saxlanc anbarlarının tikintisi, həmçinin Mərkəzi Gömrük Hospitalının tabeçiliyinə verilmiş 5 mərtəbəli yeni korpusunda bərpa-gücləndirmə və yenidənqurulması işləri davam etdirilmişdir.

Biləsuvar Gömrük İdarəsinin "Biləsuvar" dövlət sərhədindən buraxılış məntəqəsinin ərazisində idxal xətti talvarları arasında sərnişin yoxlama binasının yenidən qurulması və mövcud piyada xəttinin yanında sərnişin yoxlama binasının resurs metodu ilə smeta sənədləri hazırlanmış və tikintisi üçün müqavilə bağlanmışdır.

Xaçmaz Gömrük İdarəsinin "Samur" gömrük postunda sərnişinlərin yoxlanılması üçün inzibati binanın 1-ci mərtəbəsində arakəsmələrin yenidənqurulması və sərnişin nəqliyyatın yoxlanılması üçün inzibati binanın yanında idxal-ixrac talvarlarının tikintisi məqsədilə resurs metodu ilə hazırlanmışdır.

Azərbaycan-Gürcüstan sərhədində "İpək Yolu - Abreşumis Qza" yeni birgə gömrük sərhəd buraxılış məntəqəsinin yaradılması ilə bağlı hər iki tərəfin müvafiq dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qrupları yaradılmışdır. Hazırda layihənin hazırlanması və razılaşdırılması üzrə hər iki tərəfin aidiyyəti dövlət qurumları arasında danışıqlar aparılır.

Əldə olunmuş razılığa əsasən Gürcüstan tərəfinin hazırladığı "İpək Yolu birgə beynəlxalq sərhəd keçid məntəqəsinin praktik fəaliyyətinə dair Azərbaycan Respublikası və Gürcüstan

arasında ikitərəfli hüquqi Saziş" layihəsinin mətni razılaşdırılması məqsədilə Azərbaycan tərəfinə təqdim edilmişdir. Hazırda gömrük sərhəd buraxılış məntəqəsinin inşa ediləcəyi ərazi müəyyən edilmişdir.

**7.2. Maddi texniki baza.**

"Biləsuvar", "Qırmızı Körpü" və "Samur" dövlət sərhədindən buraxılış məntəqələrinin mövcud infrastrukturunun turizm baxımından müasir tələblərə uyğunlaşdırılması məqsədilə müvafiq layihələr hazırlanmış və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Agentliyinin rəyi alınmışdır. Dövlət Turizm Agentliyindən daxil olan məlumatda layihələrin həyata keçirilməsi ilə bağlı dövlət büdcəsindən maliyyə vəsaitinin ayrılmasının nəzərdə tutulduğu bildirilmişdir.

İşğaldan azad olunmuş Füzuli rayonu ərazisində fəaliyyətə başlamış Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin "Füzuli beynəlxalq hava limanı" gömrük postunda gömrük nəzarətinin səmərəli qaydada təşkili məqsədilə 1 ədəd "Smiths Heimann 100100T 2İS" və 1 ədəd "Smiths Heimann 7555 Ax" markalı baxış-rentgen texnikaları və 1 ədəd "HİPE PLUS" markalı, stasionar tipli metalaxtaran çərçivə quraşdırılaraq istifadəyə verilmişdir.

"Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində yük nəqliyyat vasitələrinin, əl yükləri və baqajların qeyri-intruziv formada yoxlanılması məqsədilə müvafiq olaraq Smiths Detection "HCVM 6032" markalı yoxlama baxış sistemi və Mercedes-Benz Sprinter "Scanvan 8585" markalı mobil tipli baxış-rentgen texnikası quraşdırılaraq istifadəyə verilmişdir.

Gömrük nəzarətindən keçməli olan malların yoxlanılmasının sürətləndirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması və həyata keçirilmə müddətinin azaldılması məqsədilə 1 ədəd "Smiths Heimann 130130T" markalı baxış-rentgen texnikası Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin "Logistika Mərkəzi" gömrük postunda, 1 ədəd "Smiths Heimann 100100T" markalı baxış-rentgen texnikası isə KOB-un inzibati binasında quraşdırılaraq istismara verilmişdir.

Yeni inşa olunan "Astara" modul tipli gömrük sərhəd buraxılış məntəqəsi 1 ədəd "CEİA classic" markalı, stasionar tipli metalaxtaran çərçivə, 1 ədəd "CEİA PD140N" markalı, portativ tipli metalaxtaran çərçivə və 2 ədəd yük nəqliyyat vasitələrinin çəkilərinin eyniləşdirilməsi üzrə nəzərdə tutulan "Tunaylar" markalı tərəzilərlə təchiz edilmişdir. Həmçinin yük nəqliyyat vasitələrinin yoxlanılması üçün nəzərdə tutulan 1 ədəd "Nuctech MT1213DE" mobil tipli yoxlama baxış sisteminin, baqaj və əl yüklərinin yoxlanılması üçün nəzərdə tutulan 1 ədəd "Nuctech CX6040D" baxış-rentgen texnikasının və 1 ədəd nəqliyyat vasitələrinin alt hissəsinin yoxlanılması üçün nəzərdə tutulan "Nuctech VR1000" mobil alt baxış sisteminin əldə olunması ilə bağlı müqavilə imzalanmış və sözügedən avadanlıqların qısa müddət ərzində gömrük sərhəd buraxılış məntəqəsində quraşdırılması nəzərdə tutulmuşdur.

**7.3. Texnoloji təminat, informasiya mübadiləsi və təkmilləşdirmə işləri.**

Gömrük xidmətinin vahid avtomatlaşdırılmış idarəetmə sistemi (VAİS) vasitəsilə məlumatların yoxlanılması və emalı, korporativ şəbəkənin genişləndirilməsi, elektron gömrük xidmətlərinin təşkili, informasiya resurslarının təhlükəsizliyinin təmin edilməsi və gömrük statistikasının təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Komitənin “Smart customs” mobil tətbiqinə yeni xidmətlər əlavə edilmiş, xidmət keyfiyyəti daha da yaxşılaşdırılmış, tətbiq Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin dəstəyi ilə keçirilən “MilliNet 2023” müsabiqəsinin “İlin rəqəmsal hökumət həlli” nominasiyasının qalibi olmuşdur.

Komitənin “customs.gov.az” saytında texniki təkmilləşdirmə işləri aparılmış, saytda “Sosial layihələr”, “Gömrüyün idman həyatı”, “Operativ məlumatlandırma” və s. yeni bölmələr yaradılmışdır. “e.customs.gov.az” elektron xidmətlər portalı Azərbaycan NETTY 2023 Milli İnternet Mükafatının “Virtual münsiflər heyətinin seçimi” nominasiyası üzrə qalibi elan edilmişdir.

“SİMA” - yeni nəsil rəqəmsal imzanın Komitənin elektron xidmətlər portalına (e.customs.gov.az) inteqrasiyası təmin edilmişdir. Həmçinin e.customs.gov.az portalının “my.gov.az” platformasında yerləşdirilməsi təmin edilmiş, “e.customs.gov.az” portalına və “Smart Customs” mobil tətbiqinə Vahid Giriş Sistemi (ASAN login sistemi) vasitəsilə giriş təmin edilmişdir.

“e.customs.gov.az” elektron xidmətlər portalında və “Smart Customs” mobil tətbiqində “Şəxsi Hesab Səhifəsi” elektron xidməti yaradılmış və istifadəyə verilmişdir. “Şəxsi Hesab Səhifəsi” elektron xidməti idxal-ixrac əməliyyatları zamanı gömrük bəyannamələri üzrə hesablamaların, gömrük və digər ödənişlərin uçotunun vahid platforma üzərindən reallaşdırılmasına imkan yaradır. Xidmət biznes fəaliyyətinin daha səmərəli və çevik şəkildə təşkili, maliyyə-uçot sisteminin düzgün qurulması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu elektron xidmət xarici ticarət iştirakçılarına rəsmiləşdirmə zamanı avans gömrük ödənişlərindən istənilən gömrük orqanı və gömrük ödənişi üzrə istifadə etməyə, balans məbləğini, gömrük borcunu onlayn rejimdə izləməyə şərait yaradır. Həmçinin ödənişlər barədə məlumatlar anında gömrük orqanına ötürüldüyündən rəsmiləşdirilməyə sərf olunan müddət azalır.

Dövlət sərhədindən buraxılış məntəqələrində yük nəqliyyat vasitələrinin sıxlığının effektiv idarə olunması üçün “Elektron növbə” sistemi yaradılmışdır. Xidmət vasitəsilə ölkəyə daxil olan və ölkə ərazisini tərk edən yük nəqliyyat vasitələri elektron qaydada növbə götürür və növbə siyahısı formalaşır. Gömrük əməkdaşı müvafiq sayda nəqliyyat vasitəsini sistem üzərindən qeydiyyat üçün dəvət etdikdə sürücülər SMS vasitəsilə məlumatlandırılır. Sürücülər növbəni e.customs.gov.az üzərindən təqdim olunan e-xidmət vasitəsilə izləyə bilirlər.

“Malın təsnifat kodu üzrə məcburi qərarlar” elektron gömrük xidməti hazırlanmış və istifadəyə verilmişdir. Xidmət bəyannamələrinin daha düzgün tərtib olunmasına xidmət edir və xarici ticarət iştirakçıları üçün əlverişli imkanlar yaradır.

“Nəqliyyatın idxalı üçün gömrük rüsumlarının hesablanması” elektron xidməti daha da təkmilləşdirilmiş, tam elektrikli və hibrid nəqliyyat vasitələri üçün hesablamalar xidmətə əlavə edilmiş, eyni zamanda digər mallar üçün də rüsum və yığımların hesablanması üçün imkan yaradılmışdır. Bu səbəbdən xidmətin adı “Gömrük ödənişlərinin hesablanması” kimi dəyişdirilmişdir.

“e.customs.gov.az” portalında və "Smart Customs" mobil tətbiqində “Mobil cihazların IMEI kodunun yoxlanılması” xidməti istifadəyə verilmiş, istifadəçilərə əldə etdikləri mobil cihazların İMEİ kodunu portala daxil etməklə həmin cihazların gömrük rəsmiləşdirilməsindən keçirilib-keçirilməməsi barədə məlumat əldə etmə imkanı yaradılmışdır.

“e.customs.gov.az” portalında “e-invoice” xidməti istifadəyə verilmiş, xarici ticarət iştirakçılarına malların rəsmiləşdirilməsinə dair ödəniş (invoys) sənədində olan məlumatların elektron qaydada gömrük orqanına ötürülməsi üçün imkan yaradılmışdır.

“Smart Customs” mobil tətbiqində istifadəçilərə “Bilidiriş”lərin göndərilməsi və əvvəl göndərilmiş “Bildiriş”lərin axtarışı üçün "Axtarış" funksiyaları əlavə edilmişdir.

“e.customs.gov.az” portalında “Rüsumsuz ticarət mağazasının təsis edilməsi üçün müraciət” forması “Müraciətlər” elektron xidmətinə əlavə edilmiş və xidmətin “Lisenziya və İcazələr Portalı”nda yerləşdirilməsi üçün İqtisadiyyat Nazirliyinə 03 mart 2023-cü il tarixli 3-33/2-004167/2023 nömrəli məktubla müraciət olunmuşdur.

“e.customs.gov.az” portalında “Dövlət təşkilatları üçün hesabat” modulu yaradılmışdır. Dövlət orqanlarına bu modul vasitəsilə aylıq, rüblük və illik əsaslarla Komitədən alınan hesabatların Komitəyə müraciət etmədən portal vasitəsilə əldə etmək imkanı yaradılmışdır.

**7.3.1. Məlumat mübadiləsi.**

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti üçün servis üzərindən xarici ticarət iştirakçılarının VÖEN-ini və vaxt aralığını qeyd etməklə həmin aralıqda xarici ticarət iştirakçıları tərəfindən rəsmiləşdirilən mallar və ölkədən çıxarılan valyuta haqqında məlumatların əldə edilməsi təmin olunmuşdur.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə Komitə arasında məlumat mübadiləsi üzrə imzalanmış protokola uyğun məlumat mübadiləsinin aparılması təmin edilmişdir.

Azərbaycan Respublikasında fəaliyyət göstərən banklarla məlumat mübadiləsi servisində banklar tərəfindən ödəniş apardıqları müqavilələrin surətini əldə etmə imkanı yaradılmışdır.

Gömrük xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) ilə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin "AYNA" informasiya sisteminin inteqrasiyasına başlanılmışdır. İlkin olaraq AYNA tərəfindən beynəlxalq yük daşımaları üçün verilən “Buraxılış kartları”nın VAİS-ə ötürülməsi və nəqliyyat vasitəsinin dövlət sərhədinin gömrük buraxılış məntəqələrindən keçidi zamanı “Buraxılış kartları”na sahib olmalarının VAİS-də yoxlanılması təmin edilmiş, AYNA ilə VAİS arasında inteqrasiyanın bütün sahələrini əhatə edən texniki tapşırıq sənədlərinin hazırlanması istiqamətində işlər davam etdirilmişdir.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Dövlət Gömrük Komitəsinin informasiya sistemləri arasında məlumat mübadiləsi sahəsi daha da genişləndirilmişdir. AQTA tərəfindən verilmiş sənədlər əsasında malların dövlət sərhədindən buraxılış məntəqələrindən keçirilməsi və onların rəsmiləşdirilməsi zamanı sənədlərin doğruluğu AQTA-nın informasiya sistemində yoxlanılması və AQTA-ya həmin sənədlər əsasında rəsmiləşdirilmiş mallara dair gömrük bəyannamələrinə baxış imkanı yaradılmışdır.

Dövlət Gömrük Komitəsi ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Azərbaycan Dəmir Yolları" QSC arasında məlumatların təhlükəsiz mübadiləsinin təmin edilməsi üçün ikitərəfli şifrələnmiş xüsusi virtual şəbəkə (İPSEC VPN) qurulmuşdur.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə şəbəkə üzərindən VAİS-in “VAIS-GB” altsisteminə qoşulma imkanı yaradılmışdır.

Komitənin “Hədəf Mərkəzi”ndə olan kompüterlərin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən yaradılmış “Tələbnamə Sistemi”nə qoşulması təmin edilmişdir.

“Milli Məkan Məlumatları” informasiya sistemində yerləşdirilməsi məqsədilə Komitə və Komitə sisteminə daxil olan qurumların istifadəsində olan məkan məlumatları 18 aprel 2023-cü il tarixli 3-33/2-007107/2023 nömrəli məktubla Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunmuşdur.

VAİS-də “E-TIR” səhifəsi yaradılmış, E-TIR sisteminin VAİS-ə inteqrasiyası təmin edilmiş və pilot versiyada tətbiq edilmişdir.

“Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Rusiya Federasiyasının Ticarət-Sənaye Palatası arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sistemlərinin tətbiqi haqqında texniki şərtlər” hər iki tərəfdən imzalanmış və Komitənin 2023-cü il 14 fevral tarixli 1000/035 nömrəli sərəncamı ilə Komitə sistemində tətbiq edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Belarus Respublikası Dövlət Gömrük Komitəsi arasında hər iki dövlətin sərhədindən keçən mal və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin texniki və proqram təminatı məsələləri həll edilmiş və test rejimində tərəflər arasında məlumat mübadiləsinin həyata keçirilməsinə başlanılmışdır.

Dövlət Gömrük Komitəsi ilə Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyinin Gömrük Komitəsi və Türkmənistan Respublikası Dövlət Gömrük Xidməti arasında məlumatların təhlükəsiz mübadiləsinin təmin edilməsi üçün ikitərəfli şifrələnmiş xüsusi virtual şəbəkədə (İPSEC VPN) dəyişikliklər edilmişdir.

**7.3.2. İnnovasiya texnologiyaları və informasiya təhlükəsizliyi.**

Azərbaycan Respublikası Prezidentinin “Dövlət orqanları arasında sənəd mübadiləsinin elektronlaşması haqqında” 2023-cü il 1 avqust tarixli 2279 saylı Fərmanının icrasını təmin etmək məqsədilə “Elektron Sənəd Dövriyyəsi şlüzü”nə inteqrasiya işlərinə başlanmışdır. Bunun üçün test mühiti yaradılmış və Komitə ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi arasında internet üzərindən ikitərəfli şifrələnmiş, təhlükəsiz xüsusi virtual şəbəkə (İPSEC VPN) qurulmuşdur. İki qurum arasında Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən ayrılmış xətt üzərindən VLAN-ın daşınması və həmin VLAN üzərindən təhlükəsiz məlumat mübadiləsi təmin edilmişdir.

Gömrük xidmətinin korporativ şəbəkəsinə uzaqdan qoşulmaların təhlükəsizliyini artırmaq məqsədilə istifadəçilər üçün ikili autentifikasiya “Remote Access VPN with Google Authenticator MFA” sistemi yaradılmışdır.

Əsas və ehtiyat Data Mərkəzlərində mövcud arxiv serverlərinin nüsxələmə və nüsxədən geri qaytarma sürətinin artırılması məqsədilə müasir serverlər quraşdırılmış, Komitənin Əsas Data Mərkəzində yerləşən informasiya ehtiyatları üçün yeni əməliyyat sistemləri sazlanmış və test olunmuş, ehtiyat Data Mərkəzinin UPS və elektrik sistemlərində ciddi problemlərin aradan qaldırılması məqsədilə bütün infrastruktur (şəbəkə, sistem, verilənlər bazası və s.) virtual olaraq HNBGİ-dən Komitəyə köçürülmüşdür.

“e.customs.gov.az” elektron xidmətlər portalı, “Smart Customs”mobil tətbiqi, “VAİS”-in yeni servisləri və dövlət orqanları arasında sənəd dövriyyəsinin elektronlaşması layihəsi üçün tətbiq olunan “Docker Cluster” mühiti daha güclü və inkişaf etmiş “Kubernetes” mühitinə keçirilmişdir.

Komitənin yeni strukturuna uyğun olaraq Active Directory mühiti hazırlanmış, İP-telefon bazasında nömrələnmə işləri yenidən aparılmışdır.

**7.3.3. VAİS-də təkmilləşdirmə işləri.**

Gömrük rəsmiləşdirilməsi dövründə mallar üçün gömrük ekspertizasının aparılması məqsədilə edilən müraciətlərin və Mərkəzi Gömrük Ekspertizası İdarəsi tərəfindən ekspertiza rəylərinin VAİS-in gömrük bəyannaməsi altsistemi vasitəsilə həyata keçirilməsi imkanı təmin edilmişdir;

Gələcəkdə risk profillərinin yaradılması üçün malların HS kodlarına uyğun risk elementlərinin sistemə daxil edilməsi imkanı yaradılmışdır;

“VAİS-ödənişlər” altsistemində təkmilləşdirmələr aparılmış, nəqliyyat vasitələri üçün dayanacaqda dayanmaya görə və tərəzidə çəkilməyə görə hesablanmış ödənişlərin hökumət ödəniş portalı vasitəsilə ödənilməsi təmin edilmişdir. Eyni zamanda ödəyicilərin VAİS-də onun gömrük ödənişləri üzrə borclarının olub-olmaması barədə məlumat əldə etmə imkanı yaradılmışdır;

Gömrük Dəyərinə Düzəliş (GDD) modulu hazırlanaraq istifadəyə verilmiş və bəyannamələrdə düzəlişlərin daha sürətlə aparılması təmin edilmişdir;

Rəsmiləşdirilmə prosesini izləyə bilmələri üçün gömrük rəsmiləşdirilməsi prosesinin bütün mərhələlərində bəyannaməçilərə “Smart Customs” mobil tətbiqi üzərindən “bildiriş”lərin göndərilməsi təmin edilmişdir;

Sərhəd gömrük orqanının məsul şəxsinə ölkəni tərk edən xarici ölkəyə məxsus nəqliyyat vasitəsinin tələb olunan bütün gömrük ödənişlərini həyata keçirib-keçirməməsi barədə məlumat alma imkanı yaradılmışdır;

Şəxslərə dolayı gömrük təmsilçiliyi hüququnun verilməsi və ləğv edilməsi avtomatlaşdırılmışdır. Şəxslər rəsmiləşdirmə aparmaq üçün sistemə müraciət etdikdə onların ixtisas attestatının olması və iş yerinə və əmək müqaviləsinə dair məlumatların sistem tərəfindən yoxlanılması təmin edilmişdir;

“Gömrük müşayiəti” moduluna sərhəd gömrük orqanı tərəfindən GPS-lərin paylanması funksiyası əlavə edilmişdir;

“Plombların qeydiyyatı və paylanması” modulunda xarab olmuş və ya itmiş plombların istifadəçinin müraciəti əsasında yerli gömrük orqanı tərəfindən qeydə alınması və dövriyyədən çıxarılması təmin edilmişdir;

“Gömrük orqanlarının təşəbbüsü ilə malların gömrük ekspertizasına göndərilməsinə dair Bildiriş"in VAİS üzərindən elektron qaydada göndərilməsi təmin edilmişdir;

“VAİS-sadələşdirilmiş bəyannamə (sərnişin)” (“VAİS-SB”) altsistemində təkmilləşdirilmişdir;

“VAİS-Kargüzarlıq” altsistemində "Lisenziya və icazələr" modulu əlavə edilmişdir;

Terminallarda nəqiyyat vasitələrinin giriş-çıxışına nəzarətin təmin olunması üçün “VAİS-Terminal” altsistemi yaradılmışdır. Terminalda aparılan bütün ödənişlərin malın və

nəqliyyat vasitəsinin barkoduna bağlanması və hökumət ödəniş portalı üzərindən həyata keçirilməsi təmin edilmişdir;

"VAİS-İstintaq" altsistemində təkmilləşdirmə işləri aparılmış, altsistemin əhatə dairəsi genişləndirilmiş, hesabat formalarında qanunvericiliyə uyğun düzəlişlər edilmişdir;

Gömrük sərhəd buraxılış məntəqələrində kinoloqlar tərəfindən baxış keçirilən nəqliyyat vasitələrinə dair VAİS-də qeydiyyatın aparılması üçün Kinoloji Mərkəz üçün imkan yaradılmışdır;

Komitənin rəsmi internet səhifəsinin "Sahibkarlar üçün" bölməsində "Müvəqqəti saxlanc və gömrük anbarı" altbölməsi yaradılaraq, şəxslər üçün elektron müraciət etmə imkanı təmin edilmişdir.

### 7.4. İnsan resurslarının idarəedilməsi.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 may tarixli 2132 nömrəli Fərmanının icrasından irəli gələrək Komitə Aparatının strukturu optimallaşdırılaraq təkmilləşdirilmiş, eyni funksiyaları təkrarlayan struktur bölmələr ləğv edilərək yeni struktur bölmələr yaradılmışdır.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Aparatı, ərazi və ixtisaslaşdırılmış gömrük idarələri və tabeliyində olan digər qurumlarında struktur və təşkilati-ştat tədbirləri həyata keçirilmiş və bu tədbirlər çərçivəsində rəhbər vəzifələr üzrə rotasiya tətbiq edilmiş, yerli ərazi idarələrinin rəhbərlərinin iş yerləri dəyişdirilmiş, ərazi idarələrinin rəhbərləri vəzifələrinə təyinatlar Komitə Aparatının əməkdaşları sırasından aparılmışdır. Yerli ərazi idarələrində bölmə rəisi və post rəisi vəzifələrinə təyinatlar əsasən rotasiya prinsipinin tələbləri əsasında təmin edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2023-cü il 16 fevral tarixli 1000/040 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin 2023-2028-ci illər üçün İnsan Resurslarının İnkişafı Strategiyası" və həmin Strategiyanın "2023-2025-ci illər üzrə Tədbirlər Planı" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin kadr potensialının gücləndirilməsi və kadr ehtiyatlarının formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 349 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası"nın tələblərinə uyğun olaraq vakant ştat vahidləri üzrə istedadlı və motivasiyalı gənclərin xidmətə qəbul edilməsi üçün 8 oktyabr 2022-ci il tarixdə müsabiqə elan edilmişdir. Aşkarlıq şəraitində və şəffaf üsullarla həyata keçirilən müsabiqə test imtahanı və müsahibə mərhələsindən ibarət olmuşdur. 2022-ci il 18 dekabr tarixdə xidmətə qəbul ilə əlaqədar müsabiqənin test imtahanı keçirilmişdir. Müsabiqənin müsahibə mərhələsində iştirak hüququ əldə edərək qeydiyyatdan keçmiş 315 namizəddən 124 namizəd 2023-cü il 2 mart - 22 may tarixlərdə keçirilən müsahibə mərhələsini uğurla başa vuraraq gömrük orqanlarına xidmətə qəbul olmaq hüququ əldə etmişdir. Qeyd edilən namizədlərin sənədləri toplanılaraq qanunvericiliyə uyğun şəkildə yoxlanılmış və onlardan 60 nəfəri Komitənin strukturuna daxil olan gömrük orqanlarında

müvafiq vakant vəzifələrə təyin edilmiş, digər 64 nəfər isə 2 il müddətinə Komitənin ehtiyat kadrlar siyahısına daxil edilmişlər.

Hesabat dövründə daxil olmuş müraciətlər əsasında aparılmış araşdırmaların nəticəsində xidməti pozuntulara yol vermiş 137 nəfər gömrük orqanı əməkdaşı intizam məsuliyyətinə cəlb edilmişdir. Bunlardan 1 nəfəri gömrük orqanlarından xaric edilmiş, 1 nəfər aşağı vəzifəyə keçirilmiş, 15 nəfərə sonuncu xəbərdarlıqla şiddətli töhmət, 75 nəfərə töhmət elan edilmiş, 45 nəfərə irad tutulmuşdur. Şəffaflığın və hesabatlılığın təmin edilməsi, bürokratik əngəllərin aradan qaldırılması, korrupsiya və digər hüquqpozmaların qarşısının alınması məqsədilə müntəzəm qaydada iş aparılmışdır. Hesabat dövründə 15 nəfər gömrük orqanı əməkdaşının əməllərində korrupsiya hüquqpozması və digər cinayət əməllərinin tərkib əlamətlərinin olub-olmadığına hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Azərbaycan Respublikasının Baş Prokurorluğuna, 1 nəfər gömrük orqanı əməkdaşı barəsində toplanmış material isə ibtidai istintaqı aparılan cinayət işinin materiallarına əlavə edilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə göndərilmişdir.

### 7.4.1. Daxili müsabiqələr.

Komitə sistemində mövcud olan vakant inspektor, böyük inspektor və baş inspektor vəzifələrinin tutulması ilə bağlı 15 may 2023-cü il tarixində 307 namizədin iştirakı ilə keçirilmiş müsabiqənin nəticəsində 39 namizəd qalib olmuşdur. Bunlardan 38-i müvafiq vəzifələrə təyin edilmiş, 1-i isə ehtiyat kadrlar siyahısına daxil edilmişdir.

Ərazi və ixtisaslaşdırılmış gömrük idarələrində mövcud olan vakant böyük inspektor və baş inspektor vəzifələrinin tutulması ilə bağlı 7 noyabr 2023-cü il tarixində daxili müsabiqə elanı verilmiş, 334 namizədin iştirakı ilə keçirilmiş müsabiqənin nəticəsində 103 namizəd qalib olmuşdur. Hazırda həmin şəxslərin müvafiq vakant vəzifələr üzrə karyerada yüksəlişi həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"na əsasən çağrı mərkəzində müraciətlərin cavablandırılmasını həyata keçirən təmsilçi əməkdaşlar üçün müəyyən olunmuş səriştələr nəzərə alınmaqla müvəffəqiyyət əldə etmiş 15 namizədlərdən 7-nin Çağrı Mərkəzinə təhkim olunması təmin edilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Aparatında, strukturuna daxil olan gömrük orqanları və tabeliyində olan digər qurumlarında mövcud olan vakant inspektor vəzifələrinin tutulması məqsədilə əvvəlki dövrdə Komitə tərəfindən keçirilmiş müsabiqələrdə müvəffəqiyyət əldə edərək "Azərterminalkompleks" Birliyində müvafiq vəzifələrə təyin olunmuş əməkdaşlar üçün 10 avqust 2023-cü il tarixində keçirilmiş daxili müsabiqənin nəticəsində 42 namizəd müvafiq vəzifələrə təyin olunmuşdur.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsində mövcud olan vakant inspektor və böyük inspektor vəzifələrinin tutulması məqsədilə 25 sentyabr 2023-cü il tarixində keçirilmiş daxili müsabiqənin 55 iştirakçısından 8-i müvafiq vəzifələrə təyin olunmuşdur.

Komitə sistemində mövcud olan vakant inspektor, böyük inspektor və baş inspektor vəzifələrinin tutulması ilə bağlı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının "Azərterminalkompleks" Birliyində xidmət keçən məzunları üçün 13 oktyabr 2023-cü il tarixdə keçirilmiş daxili müsabiqədə iştirak etmiş 28 namizəddən 17-si müvəffəqiyyət əldə etmişdir.

Hazırda müsabiqələrin qalibi olmuş potensiallı və layiqli kadrların vəzifədə irəli çəkilməsi istiqamətində işlər davam etdirilir.

Gömrük orqanı əməkdaşlarının attestasiyası, rotasiyası, fəaliyyətinin qiymətləndirilməsi, vəzifə təlimatlarının hazırlanması, eləcə də ehtiyat kadrlarla iş sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi ilə əlaqədar layihələrin hazırlanması istiqamətində işlər davam etdirilir.

### 7.4.2. Peşə bilik və bacarıqların inkişafı.

Dövlət Gömrük Komitəsinin 2023-cü il 12 iyul tarixli 3-33/3-2-000171/2023 nömrəli sərəncamı ilə Təlim Planı təsdiq edilmişdir. Təlim Planında ümumi idarəetmə və gömrük inzibatçılığı sahələri üzrə 8 modul və bu modulları əhatə edən 30 mövzu üzrə ümumilikdə 158 təlim keçirilmişdir. Ötən il ərzində təlimlərə 424 əməkdaş cəlb edilmişdir.

Dövlət Gömrük Komitəsinin 7 əməkdaşının namizədliyi Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin Regional Ekspertlər üzrə Məlumat Bazasına daxil edilməsi üçün Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinə təqdim edilmişdir.

### 7.4.3. Kadr sənədləri ilə iş.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 fevral tarixli 527 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları"na uyğun olaraq və texniki imkanlar nəzərə alınmaqla elektron formada aparılması, o cümlədən 1240 nəfər əməkdaşın "Kadrlar uçotunun şəxsi vərəqəsi" və həmin vərəqəyə aid olan müvafiq təsdiqedici sənədlərin toplanılması təmin edilmişdir.

Qanunvericiliyin tələblərinə uyğun olaraq gömrük orqanlarının 28 əməkdaşına ilkin xüsusi rütbələr, 632 əməkdaşa isə növbəti xüsusi rütbələr verilmişdir.

18 dekabr 2023-cü il tarixə olan dövr üçün Komitənin Aparatında, ixtisaslaşdırılmış gömrük idarələrində və tabeliyində olan digər qurumlarda xidmətə yeni qəbul olunan 80 əməkdaşa, xüsusi rütbə alan 425 əməkdaşa, vəzifə dəyişikliyi aparılan 539 əməkdaşa və ümumilikdə 1044 gömrük əməkdaşına aid xidməti vəsiqə təqdim edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 avqust tarixli 135 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları"nın 1 nömrəli əlavəsinə uyğun olaraq 2023-cü il ərzində 160 nəfər gömrük əməkdaşı barədə "Əmək pensiyası təminatı üçün hərbi (xüsusi) rütbəli şəxs haqqında təqdim olunan" Məlumat vərəqi aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialına göndərilmişdir.

## Bölmə 8. İctimaiyyətlə əlaqələr.

### 8.1. İctimai iştirakçılıq.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yanında İctimai Şuraya üzvlərin seçilməsi məqsədilə 27 noyabr 2023-cü il tarixində seçki və 30 noyabr 2023-cü il tarixində təkrar seçki keçirilmişdir. Seçkilərin nəticələrinə əsasən vətəndaş cəmiyyəti institutlarından İctimai Şuraya 9 nəfər üzv seçilmişdir. Seçkilərə hazırlıq, səsvermənin gedişi və nəticələri barədə ictimaiyyətin məlumatlandırılması tam şəffaf şəkildə təmin olunmuşdur.

### 8.2. Sosial layihələr.

Komitənin fəaliyyət göstəriciləri və Çağrı Mərkəzi vasitəsilə qəbul edilən müraciətlər mütəmadi olaraq analiz edilmiş və gömrük sistemində tətbiq edilən yeniliklərin səmərəliliyinin diaqnostikası aparılaraq təhlili materialların hazırlanması təmin edilmişdir.

Gömrük orqanları üçün aktual olan bir sıra məsələlər üzrə, o cümlədən Aksizli Mallar üzrə Baş Gömrük İdarəsində “Nəqliyyat vasitələrinin idxalının mərhələlər üzrə xəritəsi” və Hava Nəqliyatında Baş Gömrük İdarəsinin Bakı Karqo Terminalı gömrük postunda “Fiziki şəxslərin şəxsi istifadə limitini keçdiyi mallarının rəsmiləşdirilməsi prosesinin xəritəsi”, “Fiziki şəxslərin adına beynəlxalq poçt göndərişləri və ya daşıyıcı şirkət vasitəsilə gömrük ərazisinə gətirilən malların mütəmadiliyinin təhlili” barədə analitik materiallar hazırlanmışdır.

Ötən il qeyri-hökumət təşkilatları ilə 22.12.2022-07.01.2023-cü il tarixlərində 40 respondent arasında sorğu keçirilmişdir. QHT-lər arasında rəyi öyrənilən respondentlərin cavablandırdıqları suallara əsasən əldə edilmiş məlumatların emalı nəticəsində ümumi razılıq səviyyəsinin 64% olduğu müəyyən edilmişdir.

Vətəndaşların məmnuniyyətinin ölçülməsi məqsədilə Hava Nəqliyyatında Baş Gömrük İdarəsində ölkə ərazisinə daxil olan sərnişinlər arasında 02.02.2023-03.03.2023-cü il, 25.05.2023-22.06.2023-cü il tarixlərində müvafiq olaraq 3110 və 1044 respondent arasında sorğular keçirilmişdir. Rəyi öyrənilən 3110 respondentlərin cavablandırdıqları suallara əsasən əldə edilmiş dataların emalı nəticəsində sərnişinlərin ümumi razılıq səviyyəsi 93%, 1044 respondentlərin cavablandırdıqları suallara əsasən ümumi razılıq səviyyəsi isə 95% müəyyən edilmişdir.

Bakı Baş Gömrük İdarəsində gömrük rəsmiləşdirilməsi üçün müraciət edən şəxslər ilə 08.02.2023-09.03.2023-cü il tarixlərində 2613 respondent arasında sorğular keçirilmiş və rəyi öyrənilən respondentlərin cavablandırdıqları suallara əsasən əldə edilmiş məlumatların emalı nəticəsində vətəndaşların ümumi razılıq səviyyəsi 93% müəyyən edilmişdir.

Aksizli Mallar üzrə Baş Gömrük İdarəsində 07.03.2023-14.04.2023-cü il tarixlərində 1569 respondent arasında, daşıyıcı şirkətlər ilə 01.08.2023-01.09.2023-cü il tarixlərində 40 respondent arasında sorğular keçirilmiş və gömrük orqanının fəaliyyətindən razılıq səviyyəsi 83% müəyyən edilmişdir.

Gömrük sistemində tətbiq edilən yeni layihələr və gömrük xidmətləri barədə məmnunluq və məlumatlılıq səviyyəsinin ölçülməsi məqsədilə 16.11.2023-cü il tarixindən 06.12.2023-cü il tarixinədək 256 respondent arasında anonim sorğu keçirilmiş və şəxslər arasında rəyi öyrənilən

respondentlərin cavablandırdıqları suallara əsasən, əldə edilmiş sorğu məlumatlarının emalı nəticəsində gömrük sistemində tətbiq edilən yeni layihələrdən istifadə edən şəxslərin həmin xidmətlər üzrə ümumi razılıq səviyyəsinin 83% olduğu müəyyən edilmişdir.

Vətəndaşların məmnunluq səviyyəsinin artırılması, vətəndaşlar və gömrük xidməti arasında etimad səviyyəsinin daha da artırılması, həmçinin Komitənin gömrük orqanlarında nəzarət mexanizmlərinin yaradılmasının təmin olunması məqsədilə Hava Nəqliyyatında Baş Gömrük İdarəsində “Vətəndaşlara Xidmət Pəncərəsi” yaradılmışdır.

Gömrük əməkdaşlarının xidməti vəzifələrini yerinə yetirməsi zamanı təhlükəsizliyinin, məmur-vətəndaş münasibətlərində etik davranış qaydalarına riayət edilməsinə nəzarətin, həmçinin şəffaflığın təmin edilməsi, xidməti araşdırmaların həyata keçirilməsi zamanı operativ nəticələrin əldə olunması və nəticə etibarilə xidmət keyfiyyətinin artırılması məqsədilə individual portativ yaxa kameraları ilə təchiz edilməsi üzrə tədbirlər həyata keçirilmiş, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinə nümunə kimi sınaq məqsədilə 1 ədəd portativ yaxa kamerası test edilmiş və ilkin olaraq 50 ədəd kameranın alınması planlaşdırılmışdır.

Gömrük sisteminin müasir çağırışlara və tələblərə uyğun yenidən qurulması, vətəndaşlara, xarici iqtisadi fəaliyyət iştirakçılarına keyfiyyətli, şəffaf, asan və faydalı həllər ərsəyə gətirməklə, gömrük xidmətinə olan etimad səviyyəsinin daha da yüksəldilməsi məqsədilə “Gömrük İNKİŞAF modeli”nin konsepsiyası və loqosu hazırlanmışdır.

Dövlət Gömrük Komitəsi tərəfindən gömrük maskotunun hazırlanması üçün 15.09.2023-cü il tarixindən 15 oktyabr 2023-cü il tarixinədək müsabiqə elan edilmiş və sözügedən müsabiqədə iştirakçılar tərəfindən 35 müxtəlif maskot layihəsi təqdim edilmişdir.

Ötən il ərzində “Könüllü gömrükçü” dəstəsinə ümumi olaraq 470 nəfər könüllü cəlb edilmişdir. Bunlardan 294 nəfəri fəaliyyətini uğurla başa vurmaları münasibətilə sertifikatla təltif edilmişlər. 11-ci “Könüllü gömrükçü” dəstəsinə cəlb olunmuş 113 nəfər könüllüyə isə cari ilin yanvar ayının sonuna Komitə sistemində könüllü fəaliyyətlərini başa vurmaları münasibətilə sertifikatlar verilmişdir. “Könüllü gömrükçü” dəstəsinin üzvləri il ərzində ümumi olaraq 146 tədbirdə iştirak etmişdir.

### 8.3. KİV və sosial şəbəkələrlə iş.

Azərbaycan Respublikasının gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsi istiqamətində görülən işlər yeni qəbul edilən normativ hüquqi aktlar, tətbiq edilən yeniliklər barədə ictimaiyyətin məlumatlandırılması, qanunvericiliklə müəyyən edilmiş ictimai informasiyanın Komitənin rəsmi internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilməsi və mütəmadi olaraq yenilənməsi təmin edilmişdir.

Gömrük sistemində aparılan təkmilləşdirmələrlə bağlı rəsmiləşdirilmə prosesində reallaşdırılan yeniliklər barədə media nümayəndələrinin məlumatlandırılması məqsədilə ötən ilin 18 aprel və 30 dekabr tarixlərində Bakı Baş Gömrük İdarəsinə, 30 may tarixində “Xanoba” dövlət sərhədindən buraxılış məntəqəsinə mediaturlar təşkil olunmuşdur.

30 may tarixində Aksizli Mallar üzrə Baş Gömrük İdarəsində xarici ticarət iştirakçılarına “Təqib və İzləmə” layihəsinin təqdimatı keçirilmiş, gömrük işi üzrə maarifləndirici xarakterli çoxsaylı

videoçarxlar hazırlanaraq Komitənin rəsmi internet və sosial şəbəkələrdəki səhifələrində paylaşılmışdır.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Yazıçılar Birliyinin dəstəyi ilə gömrük əməkdaşları arasında "Şeir, hekayə və bədii qiraət" müsabiqəsi və gömrük orqanı əməkdaşları arasında "Heydər Əliyev və Azərbaycan gömrük xidməti" mövzusunda "Ən yaxşı məqalə" müsabiqəsi keçirilmişdir.

8 mart Beynəlxalq Qadınlar Günü, Novruz bayramı ərəfəsində Heydər Əliyev Beynəlxalq Hava Limanında sosial aksiyalar keçirilmiş, 1 İyun-Uşaqların Beynəlxalq Müdafiəsi Günü, 8 Noyabr Zəfər Günü və digər əlamətdar günlərlə bağlı 31 videoçarx, 61 poster hazırlanaraq Komitənin sosial şəbəkələrdəki rəsmi səhifələrində paylaşılmışdır.

Dövlət Gömrük Komitəsi sədrinin gömrük işinin müxtəlif sahələrinə dair Space, Real, CBC və İTV televiziyalarına müsahibələrinin, eləcə də Komitə rəsmilərinin televiziyalarda təşkil edilən 14 müzakirə verilişində çıxışları və 83 müsahibədə iştirakı təmin edilmişdir. İl ərzində media qurumlarından Komitəyə daxil olmuş 1162 sorğunun və Komitənin sosial şəbəkələrdəki rəsmi səhifələri vasitəsilə vətəndaşlardan daxil olmuş 3479 sualın cavablandılması təmin edilmişdir. 40 ədəd "Həftəlik icmal" videoçarx hazırlanaraq Komitənin internet saytında və sosial şəbəkələrdəki rəsmi səhifələrində yayımlanmışdır.

Dövlət Gömrük Komitəsi tərəfindən "facebook"da - 921, "youtube"da – 297, "twitter"də - 885, "linkedIn"də - 553, "instagram"da - 845 və "telegram"da - 848 rəsmi paylaşım edilmişdir.

Dövlət Gömrük Komitəsinin rəsmi sosial şəbəkələrdəki səhifələrində izləyicilərin sayı 2023-cü ildə "facebook"da 55505-dən 58613-ə, "twitter"də 15300-dən 17093-ə, "youtube"da 7290-dan 8580-nə, "instagram"da 35500-dən 39100-ə, "linkedIn"də 2938-dən 3520-ə, "telegram"da isə 1391-dən 1684-ə yüksəlmişdir.

Ümumilikdə ötən il ərzində gömrük işi sahəsində 205 videoçarx və 104 poster hazırlanmışdır.

### 8.4. Maarifləndirici görüşlər.

20 noyabr 2023-cü il tarixində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə Gülüstan sarayında "Gömrük-Biznes Forumu 2023" keçirilmişdir. Forumda Dövlət Gömrük Komitəsinin rəhbərliyinin iştirakı ilə gömrük sistemində görülən işlər və tətbiq edilən yeniliklər barədə biznes ictimaiyyəti üçün müxtəlif təqdimatlar keçirilmişdir. Bu çərçivədə süni intellektə əsaslanan Avtomatlaşdırılmış Risk Analizi Sisteminin (ARAS), Smart-Bot, "Gömrük İNKİŞAF Modeli", "TransXəzər Gömrük Portalı və "Səlahiyyətli İqtisadi Operator" layihələrinin biznes ictimaiyyətinə təqdimatı həyata keçirilmişdir.

8 dekabr 2023-cü il tarixidə Dövlət Gömrük Komitəsi və Caspian Energy Club-ın birgə təşkilatçılığı ilə B2G forumu keçirilmişdir. Forumda Dövlət Gömrük Komitəsinin rəhbərliyinin iştirakı ilə gömrük sistemində görülən işlər və tətbiq edilən yeniliklər barədə biznes ictimaiyyəti üçün müxtəlif təqdimatlar keçirilmiş, onları maraqlandıran sualların cavablandırılması təmin edilmişdir.

Ötən il ərzində Komitə sisteminə daxil olan gömrük orqanları tərəfindən xarici ticarət iştirakçıları ilə 50-yə yaxın görüş keçirilmiş, Komitə tərəfindən görülən işlər barədə maarifləndirmə

həyata keçirilmiş, görüşlərdə xarici ticarət iştirakçıları və gömrük təmsilçiləri tərəfindən səsləndirilən çətinliklər və təkliflər dinlənilərək qeydə alınmış və nəzərə alınması üçün Komitə Aparatının aidiyyəti struktur bölmələrinə yönəldilmişdir.

**8.5. Çağrı Mərkəzi.**

Komitənin Çağrı Mərkəzi tərəfindən ötən ilin yanvar ayı ərzində 7 313, fevral ayı ərzində 10 490, mart ayı ərzində 9 582, aprel ayı ərzində 10 449, may ayı ərzində 11 868, iyun ayı ərzində 10 121, iyul ayı ərzində 12 069, avqust ayı ərzində 14 358, sentyabr ayı ərzində 13 753, oktyabr ayı ərzində 12 016, noyabr ayı ərzində 7 208, dekabr ayı ərzində 9 398 zəng daxil olmuşdur. Ümumilikdə isə Mərkəzə 2023-cü il ərzində 128 625 müraciət daxil olmuşdur. Ötən il ilə (106 376) müqayisədə 22 249 artıq müraciət cavablandırılmışdır. 20 fevral 2023-cü il tarixindən etibarən Çağrı Mərkəzi fəaliyyətini “Bakı KOB Evi”ndə davam etdirmişdir.

Xidmət keyfiyyətinin daha da artırılması, gömrük orqanlarının fəaliyyətinə dair müsbət ictimai rəyin formalaşdırılması, vətəndaş müraciətlərinin daha qısa zaman kəsiyində cavablandırılaraq xətdə gözləmə müddətinin minimuma endirilməsi məqsədilə daxil olan sorğuların İVR (Səsli menyu) vasitəsilə cavablandırılması təmin edilmiş və mərkəzin insan resursları ilə təminatı daha da yaxşılaşdırılmışdır.

## Bölmə 9. Pedaqoji və elmi-tədqiqat fəaliyyəti.

**9.1. Dövlət Gömrük Komitəsinin Akademiyasında tədris işləri.**

2023/2024-cü tədris ili üçün Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş qəbul imtahanlarının və müsabiqənin nəticələrinə görə Dövlət Gömrük Komitəsinin Akademiyasının qəbul planı 99.3 faiz dolmuşdur. Tədris ilində bakalavriat səviyyəsinə İqtisadiyyat, Hüquqşünaslıq, Beynəlxalq ticarət və logistika (tədris Azərbaycan və ingilis dillərində), İnformasiya təhlükəsizliyi və İnformasiya texnologiyaları (tədris ingilis dilində) ixtisaslarına 139 abituriyent (rəsmi qeydiyyatdan keçən 137 nəfər), magistratura səviyyəsinə isə Dünya iqtisadiyyatı ixtisasının Gömrük işi və Hüquqşünaslıq ixtisasının Beynəlxalq iqtisadi hüquq ixtisaslaşmalarına 10 bakalavr qəbul olunmuşdur. Bakalavriat səviyyəsinə qəbul olunmuş abituriyentlərin 9 nəfəri (7%-i) 600-dən çox bal toplamışdır. Bakalavriat səviyyəsinə qəbul olunan 137 nəfərdən 106-sı (77%-i), magistratura səviyyəsinə qəbul olunan 10 nəfərdən 8-i (80%) dövlət sifarişi əsasında təhsil almışdır.

2023/2024-cü tədris ilinin payız semestrində Akademiyada bakalavriat səviyyəsində 577, magistratura səviyyəsində 19 və əlavə təhsilin təkrar ali təhsil istiqaməti üzrə isə 134 tələbə olmaqla, cəmi 730 tələbə təhsil almışdır. Bu göstərici keçən ilin müvafiq dövrünə görə 9.4% faiz çoxdur. Bakalavriat səviyyəsində 458 tələbə, magistratura səviyyəsində isə 12 tələbə olmaqla, cəmi 470 tələbə (79%-i) dövlət sifarişi əsasında təhsil alır. Ödənişli təhsil alan 126 tələbədən 30-u (24%-i) müvafiq statuslarına (məcburi köçkün və s.) görə təhsil haqqından azaddır.

| Bakalavriat səviyyəsi üzrə | | | | | |
|---|---|---|---|---|---|
| İxtisaslar | Kurslar | | | | Cəmi |
| | I | II | III | IV | |
| Hüquqşünaslıq | 40 | 40 | 40 | 49 | 169 |
| İqtisadiyyat | 20 | 20 | 20 | 46 | 106 |
| Beynəlxalq ticarət və logistika | 40 | 40 | 39 | 44 | 163 |
| İnformasiya təhlükəsizliyi | 18 | 20 | 20 | 22 | 80 |
| İnformasiya texnologiyaları | 19 | 20 | 20 | | 59 |
| **Cəmi** | 137 | 140 | 139 | 161 | **577** |

| Magistratura səviyyəsi üzrə | | | |
|---|---|---|---|
| İxtisaslar / ixtisaslaşma | Kurslar | | Cəmi |
| | I | II | |
| Dünya iqtisadiyyatı / Gömrük işi | 5 | 5 | 10 |
| Hüquqşünaslıq / Beynəlxalq iqtisadi hüquq | 5 | 4 | 9 |
| **Cəmi** | 10 | 9 | **19** |

| Əlavə təhsilin təkrar ali təhsil istiqaməti üzrə | | | | |
|---|---|---|---|---|
| İxtisaslar | Kurslar | | | **Cəmi** |
| | I | II | III | |
| Hüquqşünaslıq | 25 | 25 | 20 | 70 |
| Beynəlxalq ticarət və logistika | 16 | 20 | 28 | 66 |
| **Cəmi** | 41 | 45 | 48 | **134** |

Bakalavriat səviyyəsində İqtisadiyyat, Hüquqşünaslıq və İnformasiya təhlükəsizliyi ixtisasları üzrə 4-cü kursda təhsil alan 104 tələbənin buraxılış işlərinin mövzularının və rəhbərlərinin təsdiqi, buraxılış işi rəhbərləri tərəfindən iş planlarının verilməsi və s. ilə bağlı zəruri təşkilati tədbirlər və sənədləşmə həyata keçirilmiş, tələbələrə buraxılış işlərinin yazılması və təqdim edilməsi ilə bağlı təlimatlar verilmişdir. Bütün tələbələrin buraxılış işlərinin mövzularının gömrük işinin təşkilinin müxtəlif məsələlərinin həllinə yönəldilməsi təmin olunmuş, onların 14 həftəlik istehsalat təcrübəsi Komitənin struktur bölmələrində təşkil olunmuşdur.

2023-cü ildə Akademiyadan bakalavriat səviyyəsi üzrə 104, magistratura səviyyəsi üzrə 8 tələbə məzun olmuşdur.

2023-cü ildə Akademiya ixtisaslar üzrə keçid ballarına görə ölkə ali təhsil müəssisələri arasında ilk sıralarda yer almışdır. Bakalavriat səviyyəsində 5 ixtisasdan 4-ü üzrə Akademiya ölkə üzrə sıralamada ilk beşlikdə qərarlaşmışdır. Belə ki, cari tədris ili üçün keçirilən qəbulun nəticələrinə əsasən, Akademiya ölkədə keçid ballarına görə Beynəlxalq ticarət və logistika (tədris Azərbaycan dilində) ixtisası üzrə 1-ci, Beynəlxalq ticarət və logistika (tədris ingilis dilində) və İqtisadiyyat ixtisasları üzrə 2-ci, Hüquqşünaslıq ixtisası üzrə 3-cü, İnformasiya texnologiyaları (tədris ingilis dilində) ixtisası üzrə 4-cü yeri, İnformasiya təhlükəsizliyi ixtisası üzrə isə 7-ci yeri tutmuşdur.

### 9.1.1. Tələbə mübadiləsi və elmi tədbirlər.

Litva Respublikasının Mikolas Romeris Universiteti (MRU) və Türkiyənin Altınbaş Universiteti ilə əməkdaşlıq çərçivəsində 2023-cü il ərzində Akademiyanın 8 tələbəsi həmin ali

təhsil müəssisələrində bir semestrlik təhsil almaq imkanı əldə etmişdir. MRU-da mübadilədə iştirak edən 4 tələbə Litva Dövlət Təqaüdü əsasında təhsil alırlar.

Akademiya əməkdaşları il ərzində yerli və beynəlxalq təlimlərdə iştirak etmiş, 81 sertifikat almışdır. Akademiya tərəfindən 4-ü beynəlxalq olmaqla 9 elmi konfrans, 6 elmi-praktiki konfrans və 8 seminar təşkil edilmişdir. Akademiya əməkdaşlarının nüfuzlu resenziyalı elmi jurnallarda 10 məqaləsi dərc olunmuş, həmçinin yerli, xüsusi təyinatlı və xarici ali təhsil müəssisələri tərəfindən təşkil olunmuş 10-u beynəlxalq olmaqla, 35-dən çox elmi konfranslarda məruzələri dinlənilmişdir.

**9.1.2. İxtisasartırma təlimləri.**

Gömrük orqanlarının vəzifəli şəxslərinin peşə və ixtisas biliklərini artırmaq və onların peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin etmək məqsədilə müxtəlif mövzularda 27 təlim keçirilmişdir. Təlimlərdə ümumilikdə 1280 nəfər gömrük əməkdaşı iştirak etmişdir. Həmçinin 123 gömrük əməkdaşı CEPOL-un LEEd e-learning platformasında müxtəlif kurslarda, o cümlədən CEPOL tərəfindən təşkil edilmiş vebinarlarda və 12 gömrük əməkdaşı Polşa, Macarıstan, Moldova və Gürcüstanda keçirilmiş təlimlərdə iştirak etmişlər.

**9.1.3. Beynəlxalq əməkdaşlıq.**

Ötən il Akademiya ilə yerli və beynəlxalq təşkilat, assosiasiyalar arasında müxətif sahələr üzrə əməkdaşlığa dair 7 memorandum imzalanmışdır. Aİ Erasmus+ layihəsi olan Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının İnkişaf etdirilməsi (DIRNA) beynəlxalq konsorsium layihəsi çərçivəsində Finlandiyanın Jiveskile (Jyväskylä) Universiteti, Türkiyənin İzmir Texnologiya İnstitutu, İtaliyanın Degli Studi Dell’Aquila Universiteti ilə Akademiya arasında ikitərəfli əməkdaşlığın qurulması üzrə müzakirələr aparılmış, Almaniyanın Furtvangen Tətbiqi Elmlər Universiteti ilə ümumi əməkdaşlığa, tələbə və heyət mübadiləsinə dair müqavilə layihələri hazırlanmışdır. Cənubi Koreya, Çin, Yaponiya, Böyük Britaniya, Almaniyada yerləşən bir sıra universitetlərlə, eləcə də Portuqaliyanın Universidade Catolica, Qazaxıstanın Almatı Menecment Universiteti, Kanadanın Viktoriya Universiteti ilə əməkdaşlıq imkanları üzrə ilkin razılıqlar əldə edilmiş, Latviyanın Turiba və Finlandiyanın Satakunta Tətbiqi Elmlər Universiteti ilə əməkdaşlıq müzakirələrinə başlanılmışdır.

28 iyul 2023-cü il tarixində İsrail-Azərbaycan Ticarət və Sənaye Palatasının nümayəndələri ilə Akademiyada görüş keçirilmiş və görüşdə İsrail universitetləri ilə rəqəmsal texnologiyalar sahəsində əməkdaşlıq imkanları müzakirə edilmişdir.

2023-cü ildə ÜGT PICARD proqramının Kanadanın Viktoriya Universitetində gömrük rəsmilərinin müxtəlif mövzular üzrə akademik və praktiki tədqiqat təklifləri üçün beynəlxalq miqyasda verdiyi elan üzrə ÜGT-yə göndərilmiş 391 tədqiqat layihəsindən 91-i seçilmişdir. Seçilən layihələrdən biri Akademiyanın əməkdaşı tərəfindən hazırlanmış “Gömrük və Dark Net: Narkotik Vasitələrin, Odlu Silahların Qanunsuz Dövriyyəsinə qarşı Mübarizədə Avropa və Beynəlxalq Perspektivlər (Proqramlar və Alətlər)” mövzusunda praktiki tədqiqat layihəsi olmuşdur. Həmin proqram Akademiyanın əməkdaşı Koreya Gömrük Əməkdaşlığı Fondunun təqaüdünü də qazanaraq Viktoriya Universitetinin Qloballaşmada Sərhədlər İnstitutunun təşkil etdiyi xüsusi onlayn kursda - “21-ci Əsrdə Ticarət və Gömrük Sərhədləri” kursunda iştirak etmişdir.

Ötən il ikili dərəcə proqramlarının qurulması üzrə fəaliyyətlər də uğurla davam etdirilmişdir. Akademiya ilə Litvanın Mikolas Romeris Universiteti arasında 07 dekabr 2023-cü il tarixində magistratura səviyyəsində Beynəlxalq və Avropa Biznes Hüququ üzrə ikili dərəcə proqramı müqaviləsi imzalanmışdır. Bakalavriat səviyyəsində Almaniyanın Furtvangen Tətbiqi Elmlər Universiteti ilə (FTEU) ikili dərəcə proqramının yaradılması üzrə işlər yekunlaşdırılmış və 2024-cü ilin fevral ayında müqavilənin imzalanması nəzərdə tutulmuşdur.

## Bölmə 10. Sənəd dövriyyəsi və vətəndaş müraciətləri.

### 10.1. Sənəd dövriyyəsi.

Dövlət Gömrük Komitəsinə ümumilikdə 47422 sənəd daxil olmuşdur. Bunlardan 2911-i Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Milli Məclisi və Nazirlər Kabinetindən, 4355-i Nazirlik, Komitə və digər icra hakimiyyəti orqanlarından, 1804-ü hüquq-mühafizə orqanlarından, 773-ü xarici ölkələrdən, səfirliklərdən, beynəlxalq təşkilatlardan, 13248-i müxtəlif təşkilatlar və hüquqi şəxslərdən, 13801-i Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan qurumlardan, 10530-u vətəndaşlardan daxil olmuşdur.

Hesabat dövrü ərzində Komitədən 24665 sənəd xaric olunmuşdur. Onlardan 424-ü Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Milli Məclis və Nazirlər Kabinetinə, 2232-i nazirlik, komitə və digər icra hakimiyyəti orqanlarına, 2622-i hüquq-mühafizə orqanlarına, 1083-ü xarici dövlətlərə, beynəlxalq təşkilatlara və səfirliklərə, 5354-ü müxtəlif təşkilatlara və hüquqi şəxslərə, 9389-u Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan qurumlara və 3561-i fiziki şəxslərə göndərilmişdir.

Dövlət Gömrük Komitəsinin əsas fəaliyyəti ilə bağlı 24 qərar, 349 sərəncam, şəxsi heyət üzrə 1505, əməkdaşların ezamiyyə və məzuniyyətləri ilə bağlı 1686 əmr, gömrük orqanlarının fəaliyyətinə üzrə 171 sertifikat və icazə sənədi, inzibati xəta haqqında işlər üzrə 119 qərar və Komitənin əməkdaşlarına verilmiş 181 müxtəlif arayış qeydiyyata alınmışdır.

### 10.2. Vətəndaş müraciətləri.

Dövlət Gömrük Komitəsinin Aparatına və Komitənin strukturuna daxil olan gömrük orqanları və tabeliyində olan digər qurumlara vətəndaşlardan 36332 ərizə, 356 şikayət və 3 təklif ümumilikdə 39691 müraciət daxil olmuşdur. Müraciətlərin 34967-si gömrük orqanlarının fəaliyyəti, 88-i maddi yardım, 356-sı gömrük orqanlarının əməkdaşlarından şikayət, 1121-i gömrük orqanlarında işə qəbul və 3159-u digər məsələlərlə bağlı olmuşdur. Qeyd edilən müraciətlərdən 31522-i təmin edilmiş, 304-ü rədd edilmiş (əsassız olduğundan), 1436-ı icraata verilmiş, 6429-u baxılması üçün aidiyyəti təşkilatlara göndərilmişdir.